RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 150 (9605) 19 iyul 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

◆ Prezident İlham Əliyevin Böyük Britaniyaya işgüzar səfəri




# Azərbaycanla hər yerdə hesablaşırlar

Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak etmək üçün Böyük Britaniyada işgüzar səfərdədir.

Dövlət başçısı İlham Əliyev səfər çərçivəsində Oksfordda qarşı tərəfin müraciətinə əsasən Lüksemburqun Baş naziri Lyuk Friden, İsveçrə Prezidenti Viola Amherd, Macarıstanın Baş naziri Viktor Urban, Litva Prezidenti Gitanas Nauseda, Finlandiya Prezidenti Aleksandr Stubb, Çexiyanın Baş naziri Petr Fiala, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşüb. Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısının açılış və bağlanış plenar iclaslarında iştirak edib, "Enerji və bağlantı" mövzusunda "dəyirmi masa"da çıxış edib.

Dövlət başçısı İlham Əliyev tədbirdə "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısının iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətdə iştirak edib.

→ 2-4

# Ədalət meyarı




## Azərbaycan müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq mübarizəsinin qlobal platformasına çevrilib

2020-ci ildə BMT-nin illər öncə qəbul etdiyi qətnamələri öz gücünə reallığa çevirən Azərbaycan tarixi ədaləti bərpa edəndə dünyaya böyük səs-küy düşdü. Amma Azərbaycan dünyaya göstərdi ki, heç bir ölkənin ərazisində gözü yoxdur, yalnız öz qanuni torpaqlarını terrorçulardan təmizləyir. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra isə regionda yaranan reallıqlar hər kəs tərəfindən qəbul edildi. Çünki Azərbaycan regiona sülh gətirdi, təhlükəsizliyin təmin olunması üçün ortaya güc qoydu.

Bu gün də Azərbaycan xoşməramlı missiyasını davam etdirməkdədir. Dünya birliyindən ədalət istəyən, hansısa dövlətlərin müstəmləkəçiliyində əzilmək istəməyən, haqlarını tələb edən bəzi ölkələrə hərtərəfli dəstək göstərməklə onlara sahib çıxır.

Elə Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da yaradılan Bakı Təşəbbüs Qrupunun fəaliyyəti də bunun əyani göstəricisidir. Bakı Təşəbbüs Qrupu artıq bir ildir ki, müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir. Bu xüsusda, BTQ tərəfindən artıq 15-dək beynəlxalq konfrans təşkil edilib. Onlardan 4-ü BMT-nin Nyu York, Cenevrə və Vyanadakı qərargahlarında, biri İstanbulda, digərləri isə Bakıda təşkil olunub.

Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə iyulun 17-18-də Bakıda keçirilən ilk qurultay müstəqillik hərəkatlarının tarixində ilk dəfə təşkil olunub.

→ 5

# Paşinyan sülhdən qaçır

İndiki mərhələdə Hayastan iqtisadi, siyasi, geosiyasi və hərbi sferalarda çox çətin duruma düşüb. Hər tərəfdə yaranmış problemlərin altında əzilən ölkənin baş naziri Nikol Paşinyan çıxış yolunu Qərbə sığınmaqda görür, onun verdiyi vədlərə güvənir. Hər halda, Paşinyan hakimiyyətinin xarici siyasəti onun konkret seçim etdiyini göstərir. Bu ölkə Rusiyanın xeyrinə olmayan istiqamətdə israrlı davranmağa çalışır.

Elə bunun nəticəsidir ki, Qərb Hayastanda növbədənkənar parlament seçkilərinin daha erkən keçirilməsini tələb edir. Qeyd edilir ki, rəsmi dairələrdə Qərbdən Ermənistanda növbədənkənar parlament seçkilərinin keçirilməsi tələbi ilə bağlı məlumatlar dolaşır. Məlumata görə, Hayastanın hakim Vətəndaş Cəmiyyəti Partiyasının dar çərçivəli iclaslarından birində baş nazir Nikol Paşinyan gələn il seçkilərin keçiriləcəyini istisna etmədən qısaca olaraq fövqəladə vəziyyət mövzusuna toxunub. Qəzet yazıb ki, Paşinyan zamanın onun iqtidarının əleyhinə işlədiyini bilir. Yeni müxalifət qüvvəsinin formalaşma ehtimalı artır, ona görə də müxalifəti təəccübləndirmək qərarına gəlib.

Baş nazir Nikol Paşinyan dövlət çevrilişi təhlükəsinin getdikcə daha da artdığının fərqindədir. Ona görə də o, əlində olan bütün inzibati müqavimət resurslarını hərəkətə gətirib və revanşistlərin ölkədə hakimiyyəti dəyişə bilməyəcəyini bildirib: "Mən feodal-klerikal elitaya səslənirəm. Siz Hayastanda hakimiyyət dəyişikliyini həyata keçirə bilməyəcəksiniz. Çünki siz artıq çox gücsüzsünüz".

→ 5

# Bəşəri ideallarin aliliyi naminə

## Bakı Təşəbbüs Qrupu insanlığa qarşı cinayətlərlə mübarizəyə mühüm dəstək verir

Bakı Təşəbbüs Qrupu XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən, dünyanın müxtəlif bölgələrində yerləşən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə dəstək verir. Azərbaycan bu prosesdə daim aktiv rol oynamaqla bəşəri dəyərlər adına utanc olan neokolonializmin birdəfəlik kökünün kəsilməsini israrla arzu edir. Bakıda Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə təşkil olunan Birinci Qurultay da ilk növbədə Azərbaycanın bu istiqamətdə verdiyi töhfəsi hesab olunmalıdır.

→ 6

# Fransanın müstəmləkəçilik siyasətinə etirazlar güclənir

Bu, rəsmi Parisin yaramaz siyasəti və xislətidir. XXI əsrdə də müstəmləkəçilik siyasətini davam etdirən rəsmi Paris əsarəti altında saxladığı xalqlara öz ölkələrində azad yaşamağa, rahat işləməyə imkan vermir. Ancaq son zamanlar həmin ölkələrin əhalisi dövlət müstəqilliyini bərpa etmək, milli azadlığa nail olmaq uğrunda daha qətiyyətlə mübarizə aparırlar.

Son hadisələr göstərir ki, Fransa hökuməti məkrli əməllərindən əl çəkməməkdə, müstəmləkəçilik siyasətini sürdürməkdə israrlıdır. Ancaq bütün bunlar düşdüyü girdabı daha da dərinləşdirməkdən, daha çox uğursuzluğa düçar olmaqdan başqa heç nəyə yaramır. Bu ölkənin müstəmləkəçilik siyasətindən əziyyət çəkən, zülmlər, işgəncələr, qətllər, qarətlər, qırğınlar görən xalqlar bu gün müstəmləkə zəncirlərini qırıb atmağa, azadlığa çıxmağa, öz haqq səslərini bütün dünyaya eşitdirməyə çalışırlar.

Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə iyulun 17-18-də Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə Bakıda keçirilən Birinci Qurultay bu baxımdan əhəmiyyətli oldu. Qurultayın keçirilməsi ideyası Fransanın dənizaşırı ərazilərinin müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatlarına məxsusdur. Niderland koloniyaları olan Bonayre və San-Martin adalarından 3 təşkilat qurultayın işində fəxri qonaq qismində iştirak etdi.

→ 6

# Bayden seçkilərdən geri çəkilir?

## ABŞ Prezidentinin tərəfdarlarının sayı azalır



Bundan başqa, ABŞ-də "ABC News", "Washington Post" və "Ipsos" tərəfindən 5-9 iyul tarixləri arasında ölkə daxilində keçirilmiş sorğu əsasında respondentlərin 85 faizi Baydenin ikinci dəfə prezident olmaq üçün çox yaşlı olduğunu deyiblər. Eyni zamanda iştirakçıların 67 faizi noyabrda keçiriləcək prezident seçkilərində onun namizədliyini geri götürməli olduğunu bildirib.

Qeyd edək ki, Baydenin seçkilərdən geri çəkilməsi ilə bağlı çağırışlar onun iyunun 27-də Trampla seçkiqabağı televiziya debatındakı nəticələrindən sonra başlayaraq, getdikcə genişlənməkdədir. Demokratlar ABŞ Prezidentinə postu saxlamaq cəhdlərindən əl çəkməsini məsləhət görürlər. Ümumilikdə Baydeni seçkilərdən geri çəkilməyə səsləyən Demokrat Partiyası üzvlərinin sayı 20-ni keçib. Beləliklə, demokratlar artıq yeni namizəd axtarışındadırlar.

→ 5

# İqlim dəyişmələrinin qarşısını almaq mümkündür

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına qoşulan 190-dan çox dövlət məhz bu proseslərdən əziyyət çəkən ölkələrdir. Həmin dövlətlər müxtəlif konfrans və seminarlar keçirərək "yaşıl enerji"yə keçidin reallaşmasına və atmosferə karbon qazının atılmasının azaldılmasına çalışırlar. Bu tədbirlər arasında konvensiya tərəfdarlarının konfransı (Conference of the Parties (COP) xüsusilə əhəmiyyətlidir. Sayına görə 29-cu konfrans (COP29) cari ilin noyabr ayında Bakıda keçiriləcək və bu tədbir ölkəmiz üçün mühüm xarakter daşıyır. Bakının belə bir möhtəşəm tədbirin keçirilməsi üçün seçilməsi təsadüfi deyil. Neft-qaz ölkəsi olan Azərbaycan "yaşıl enerji"yə keçid istiqamətində kifayət qədər addım atıb və atmaqdadır. İqlim dəyişmələrinin qarşısının alınması ilk növbədə istixana effektini törədən qazların atmosferə buraxılmasını ya sıfır səviyyəsinə endirilməsini, ya da əhəmiyyətli dərəcədə azaldılmasını tələb edir. Bu isə öz növbəsində bərpaolunmayan enerji mənbələrindən (kömür, neft, qaz, torf, müxtəlif növ bitumlar və s.) bərpaolunan enerjiyə (günəş, külək, su axarları və s.) keçmək deməkdir.

→ 9



◆ Prezident İlham Əliyevin Böyük Britaniyaya işgüzar səfəri

# Azərbaycanla hər yerdə hesablaşırlar

## Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak etmək üçün Böyük Britaniyaya işgüzar səfəri



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak etmək üçün İngiltərədə işgüzar səfərdədir.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti Oksforddakı Blenheim sarayına gəldi.

Dövlətimizin başçısını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmer qarşıladı.

## Azərbaycan Prezidenti İlham Əliyev Oksfordda Lüksemburqun Baş naziri Lyuk Friden ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Lüksemburq Böyük Hersoqluğunun Baş naziri Lyuk Friden ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələr müzakirə olundu. Lüksemburqun Baş naziri Azərbaycan və region haqqında daha çox məlumatın əldə edilməsinin və regionun sabitliyinin ölkəsi üçün vacibliyini bir daha vurğuladı. O, Lüksemburqun regional siyasətinin balanslı xarakter daşıdığını diqqətə çatdırdı.

Dövlətimizin başçısı regional proseslər barədə məlumat verərək bölgəyə münasibətdə balanslı siyasətin və bütün tərəflərin mövqeyinə hörmətlə yanaşılmasının önəmini qeyd etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunularaq, qarşılıqlı hörmət və etimad əsasında əlaqələrimizin inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğu vurğulandı.

Azərbaycan ilə Lüksemburq arasında yüksək texnologiyalar, səhiyyə, investisiyalar, nəqliyyat daşımaları və digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Azərbaycanın Avropa İttifaqı və İttifaqa üzv ölkələr ilə çox yaxın əlaqələrə malik olduğu qeyd edildi. Avropa Siyasi Birliyi platformasının müzakirələrin aparılması üçün vacib məkan olduğu bildirildi.

Görüşdə Azərbaycanın COP29-a evsahibliyi etməsinin əhəmiyyəti vurğulandı.

Lüksemburqun Baş naziri bu tədbirdə iştirak etmək niyyətində olduğunu diqqətə çatdırdı.

## Prezident İlham Əliyev Oksfordda İsveçrə Prezidenti Viola Amherd ilə söhbət edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısı çərçivəsində İsveçrə Konfederasiyasının Prezidenti Viola Amherd ilə söhbət edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlər və regional sülh gündəliyinin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

İsveçrə şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərinə töhfəsi müzakirə olundu.

Söhbət zamanı COP29 və iqlim dəyişmələri ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycan Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orban ilə söhbət edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısı çərçivəsində Macarıstanın Baş naziri Viktor Orban ilə söhbət edib.**



AZƏRTAC xəbər verir ki, dostluq şəraitində keçən söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlər və əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu. Macarıstanın Baş nazirinin Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Şuşaya səfəri və bu çərçivədə keçirilən görüşlər məmnunluqla xatırlandı.

Azərbaycan Prezidenti digər dövlət başçıları və sammit iştirakçıları ilə də söhbət etdi.

## Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısının açılış plenar sessiyasında iştirak edib



İyulun 18-də Oksfordda "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısının açılış plenar sessiyası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Plenar sessiya başa çatandan sonra iştirakçılar birgə foto çəkdiriblər.



◆ Prezident İlham Əliyevin Böyük Britaniyaya işgüzar səfəri

# Azərbaycanla hər yerdə hesablaşırlar

## Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 4-cü Zirvə toplantısı çərçivəsində "Enerji və bağlantı" mövzusunda "dəyirmi masa"da çıxış edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda "Avropa Siyasi Birliyi"nin 4-cü Zirvə toplantısı çərçivəsində "Enerji və bağlantı" mövzusunda "dəyirmi masa"da iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.**

### Prezident İlham Əliyevin çıxışı

- Enerji sahəsində Bakıda müəyyənləşdirdiyimiz strateji tərəfdaşlıq bizim Avropaya qaz təchizatımızın 2027-ci ilin sonuna qədər ikiqat artırılmasını nəzərdə tutur. Biz bu hədəfə doğru irəliləyirik. 2021-ci ildə Avropa qitəsinə bizim qaz təchizatımız ildə 8 milyard kubmetr təşkil edirdisə, bu il bu göstərici 13 milyard kubmetrə yaxın olacaq. 2021-ci ildə ümumi ixrac 18 milyard kubmetr təşkil edirdisə, bu il bu göstərici 25 milyard kubmetr olacaq. İxracın yarıdan çoxu Avropaya gedir.

Azərbaycanın təbii qazını səkkiz ölkə alır, onlardan beşi - Bolqarıstan, Yunanıstan, İtaliya, Macarıstan və Rumıniya Avropa İttifaqının üzvüdür. İkisi İttifaqa daxil olmaq üçün namizəd ölkədir - Gürcüstan və Serbiya, eləcə də Türkiyə. Sessiyadan əvvəl cənab Baş nazirlə müzakirə etdik ki, dünən Sloveniya-Azərbaycan qaz əməkdaşlığı istiqamətində mühüm hadisə baş verdi. Ümid edirik ki, biz bir neçə aya Sloveniya bazarına daxil ola biləcəyik. İndi Avropa interkonnektor layihələri icra olunduqca Azərbaycan qazının daha çox Avropa ölkəsinə ixrac edilməsi üçün əlavə imkanlar olacaq.

Avropa Komissiyası Azərbaycanı enerji üzrə etibarlı tərəfdaş və ümum-Avropa qaz təchizatçısı adlandırmışdır. Bu, çox böyük məsuliyyətdir və əlbəttə ki, biz yalnız Avropaya 2027-ci ilə qədər ildə 20 milyard kubmetr qazla təchiz etmək üzrə öz öhdəliyimizi yerinə yetirmək üçün əlimizdən gələni etməyə çalışırıq. Bu, bizim hədəfimizdir. Bizim resurslarımız və infrastrukturumuz var. Yeni tərəfdaşlarla, əsasən Sloveniya və




Slovakiya ilə danışıqlar prosesini sürətləndirməliyik, həmçinin mövcud bazarlara qaz təchizatımızın artırılması üzərində çalışmalıyıq. Çünki bizim İtaliyaya təchizatımız 9 milyard kubmetrdirsə, İtaliyaya bizdən 20 milyard kubmetr qaz lazımdır. Bu, sadəcə, qazıntıya olan tələbatın bir nümunəsidir. Digər bir məqam isə qazıntı yanacağı və onun müəyyən demonizasiyası ilə bağlıdır. Mən bu məsələ ilə bağlı şərhlərimi daha sonra bildirərəm.

Bizim enerji layihələrinə gəlincə, Azərbaycan etibarlı təchizatçı olub. Demək olar ki, 20 il ərzində biz tarixdə ilk dəfə olaraq Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən kəmər təşəbbüsü ilə çıxış etdik və qonşularımızla birlikdə onu istismara verdik. İndi biz Aralıq dənizində Türkiyənin Ceyhan limanından neftimizi müxtəlif təyinat nöqtələrinə, o cümlədən Azərbaycanın xam neftindən əhəmiyyətli dərəcədə asılı olan çox həssas nöqtələrə nəql edirik. Bəzi ölkələrdə Azərbaycan xam neftinin istehlakı onların tələbatının 50 və ya daha çox faizini təşkil edir. Üç ildən artıqdır ki, biz mühüm qaz təchizatçısına çevrilmişik. Bizim qaz kəmərimiz - "Cənub qaz dəhlizi" 2020-ci il dekabrın 31-də istismara verilib. Sözsüz ki, müqavilələr bundan əvvəl imzalanmışdı və biz avropalı tərəfdaşlarımızı dərhal təchiz etməyə başladıq. Bundan əvvəl bizim tərəfdaşlarımız yalnız Gürcüstan və Türkiyə idi. Beləliklə, qismən Adriatik dənizinin dibi ilə uzanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi - "Cənub qaz dəhlizi" istismara verildikdən sonra biz dərhal Avropaya təchizata başladıq.

## Azərbaycan Prezidenti İlham Əliyev Oksfordda Litva Prezidenti Gitanas Nauseda ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri müzakirə olundu.

COP29-un keçirilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik edən Litva Prezidenti bu tədbirə dəvətə görə təşəkkürünü bildirdi və Bakıda COP29 çərçivəsində dövlətimizin başçısı ilə görüşəcəklərini vurğuladı.

Gitanas Nauseda Azərbaycana rəsmi səfərini və səfər zamanı müzakirə olunmuş məsələləri məmnunluqla xatırladı.



Söhbət zamanı regional sülh gündəliyi və Azərbaycan-Avropa İttifaqı əlaqələri barədə fikir mübadiləsi aparıldı.

Görüşdə Böyük Britaniya tərəfinin Münxen Təhlükəsizlik Konfransı formatında olduğu kimi, Ermənistanla Azərbaycan arasında görüşün keçirilməsi barədə təklifinin Ermənistan tərəfindən müsbət cavablandırılmaması çox böyük təəssüf hissi ilə vurğulandı.

## Azərbaycan Prezidenti İlham Əliyev Oksfordda Finlandiya Prezidenti Aleksandr Stubb ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Finlandiya Prezidenti ATƏT-in fəaliyyətdə olan sədri qismində regiona səfərini və bu yaxınlarda dövlətimizin başçısı ilə telefon danışığını məmnunluqla xatırladı, bu telefon danışığı əsnasında müzakirə olunan məsələləri qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Finlandiya arasında ikitərəfli münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar məsələlərə toxunuldu.

Dövlətimizin başçısı sülh gündəliyinin irəli aparılması və sülh müqaviləsinin imzalanması üçün Ermənistanın Konstitusiyasında müvafiq dəyişikliklərin edilməsinin vacibliyini bir daha vurğuladı.

Görüşdə Avropanın enerji təhlükəsizliyi məsələləri müzakirə olundu.

Finlandiya Prezidenti böyükmiqyaslı tədbir olan COP29-un ölkəmizdə keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. Aleksandr Stubb bu tədbirdə məmnuniyyətlə iştirak edəcəyini deyərək, onun təşkilində Azərbaycana uğurlar arzuladı.

Söhbət zamanı Münxen Təhlükəsizlik Konfransı formatında olduğu kimi, Ermənistanla Azərbaycan arasında görüşün keçirilməsi barədə Böyük Britaniyanın təklifinin Ermənistan tərəfindən müsbət cavablandırılmamasının təəccüb doğurduğu bildirildi, bunun başadüşülən olmadığı çox böyük təəssüflə qeyd edildi.

## Azərbaycan Prezidenti İlham Əliyev Oksfordda Çexiyanın Baş naziri Petr Fiala ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Çex Respublikasının Baş naziri Petr Fiala ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında siyasi dialoqdan məmnunluq ifadə olundu.

Petr Fiala Azərbaycan ilə Çexiya arasında münasibətlərin strateji xarakter daşıdığını, əlaqələrimizin çox möhkəm təməllər əsasında qurulduğunu bildirdi. Qeyd etdi ki, Çexiya Azərbaycan ilə münasibətləri bundan sonra da inkişaf etdirmək niyyətindədir.

Azərbaycan-Çexiya əlaqələrinin dinamik surətdə inkişaf etdiyini deyən dövlətimizin başçısı münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşımasından məmnunluğunu bildirdi.

Görüşdə Azərbaycan ilə Çexiya arasında enerji, o cümlədən neft-qaz sahəsində əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı. Hazırda Azərbaycan neftinin Çexiyaya ixrac edildiyi, həmçinin qaz sahəsində əməkdaşlıq üçün böyük perspektivlərin olduğu vurğulandı. Azərbaycan qazının artıq Çexiyanın qonşu ölkələrinə ixracının təmin edildiyi bildirilərək, Çexiyaya ixrac üçün də yaxşı imkanların olduğu qeyd edildi.

Söhbət zamanı iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, Çexiya şirkətlərinin Azərbaycandakı fəaliyyətinə toxunuldu, siyasi, iqtisadi, ticarət, investisiyalar sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik edən Petr Fiala dəvətə görə təşəkkürünü bildirdi və bu tədbirdə məmnunluqla iştirak edəcəyini vurğuladı.



◆ Prezident İlham Əliyevin Böyük Britaniyaya işgüzar səfəri

# Azərbaycanla hər yerdə hesablaşırlar

## Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısının bağlanış plenar sessiyasında iştirak edib

İyulun 18-də Oksfordda "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısının bağlanış plenar sessiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib.

## Prezident İlham Əliyev Oksfordda Zirvə toplantısının iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətdə iştirak edib

İyulun 18-də Oksfordda "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısının iştirakçılarının şərəfinə rəsmi ziyafət verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Azərbaycan Prezidenti İlham Əliyev Oksfordda Almaniyanın Kansleri Olaf Şolts ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevin bu ilin aprelində Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı məmnunluqla xatırlandı, bu çərçivədə Olaf Şolts ilə keçirilmiş görüş və müzakirə olunan məsələlər bir daha vurğulandı.

Almaniya Kansleri Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyini dəstəklədiyini diqqətə çatdırdı. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kanslerinin təşəbbüsü ilə Azərbaycan Prezidentinin Kansler Olaf Şolts və Ermənistanın baş naziri Nikol Paşinyan ilə keçirilmiş birgə görüşünün vacibliyi bildirildi.

Bunun ardınca Almaniya tərəfinin dəstəyi və evsahibliyi ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşünün keçirildiyi qeyd olundu.




Dövlətimizin başçısı Ermənistan ilə Azərbaycan arasında danışıqlar prosesinin tərkib hissəsi kimi sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində əldə olunmuş uğurları xüsusi qeyd etdi, delimitasiya prosesi ilə əlaqədar sənədlərin razılaşdırıldığını və prosesin bu xətt üzrə davam edəcəyini bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan sülh gündəliyini, sülh müqaviləsinin tezliklə imzalanmasını və sülh prosesini dəstəkləyir. Amma bunun üçün ilk növbədə Ermənistanın konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar və Azərbaycanın Qarabağ regionunun Ermənistanla birləşməsini nəzərdə tutan müddəalar dəyişdirilməli, konstitusional əsasda Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda ABŞ Dövlət katibi Entoni Blinkenin dəstəyi ilə keçirilmiş görüşündə də bu məsələlərin müzakirə olunduğu vurğulandı.

Görüşdə COP29-la əlaqədar hazırlıq prosesi müzakirə olundu. Azərbaycan ilə Almaniyanın bu sahədəki əməkdaşlığı təqdir edildi və yüksək qiymətləndirildi.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan COP29-la əlaqədar dünya ölkələri, xüsusilə Qlobal Cənub və Qlobal Şimal arasında konsensusun qurulması, həmrəyliyin artırılması istiqamətində səylərini bundan sonra da davam etdirəcək.

Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə yüksək qiymətləndirildi.

Almaniya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparıldı və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

## Britaniyanın xarici işlər üzrə dövlət katibi Azərbaycan tərəfindən sülh prosesi ilə bağlı atılan addımlar barədə məlumatlandırılıb

**İyulun 18-də Birləşmiş Krallığın Vudstok şəhərində keçirilən "Avropa Siyasi Birliyi" Sammiti çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Krallığın xarici işlər, birlik və inkişaf məsələləri üzrə dövlət katibi Devid Lemmi arasında görüş keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanla Birləşmiş Krallıq arasında strateji tərəfdaşlıq əlaqələrinin müxtəlif aspektləri və perspektivləri, regional və beynəlxalq gündəliyin qarşılıqlı maraq doğuran məsələləri, eləcə də Azərbaycan-Ermənistan normallaşma prosesinin cari vəziyyəti müzakirə edilib.

Azərbaycan ilə Birləşmiş Krallıq arasında bütün sahələrdə, xüsusilə də energetika, təhsil, humanitar əlaqələr kimi istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığın olduğu, ölkəmizin mühüm ticarət tərəfdaşı kimi xüsusi əhəmiyyəti vurğulanıb. Birləşmiş Krallığın şirkətlərinin Azərbaycan iqtisadiyyatının istər neft, istərsə də qeyri-neft sektorunda uğurla fəaliyyət göstərdiyi, iqtisadi əməkdaşlığın daha da dərinləşməsi üçün geniş imkanların mövcud olduğu bildirilib.

Bununla yanaşı, ölkələrimiz arasında "yaşıl enerji" sahəsində əməkdaşlıq məsələləri nəzərdən keçirilib, bu sahədə Azərbaycanla əməkdaşlıq üçün geniş perspektivlər təqdir olunub. Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyinin mövcud əməkdaşlıq gündəliyində iqlim fəaliyyəti istiqamətinin gücləndirilməsinə töhfə verə biləcəyi qeyd edilib.

Azərbaycanın üzləşdiyi mina təhdidi nəzərə alınaraq, humanitar minatəmizləmə sahəsində ölkəmizə dəstəyin əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı tərəflər iki ölkə arasında mövcud dialoq, qarşılıqlı səfərlər və təmasların, o cümlədən siyasi məsləhətləşmələrin münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildiriblər.

Nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari vəziyyət, o cümlədən Azərbaycan tərəfindən sülh prosesi ilə bağlı atılan addımlar, ölkəmizin Ermənistanla münasibətlərin normallaşması ilə bağlı mövqeyi, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə məlumat verib. Ermənistanla danışıqlarda sülh sazişi mətni üzrə əhəmiyyətli irəliləyişə baxmayaraq, Ermənistan konstitusiyasında və qanunvericilik aktlarında ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddiaların sülh prosesində əsas maneə olduğu diqqətə çatdırılıb.

"Avropa Siyasi Birliyi" Sammiti çərçivəsində Birləşmiş Krallığın Baş nazirinin təşəbbüsü və iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında görüşün keçirilməsi üçün səy göstərilməsinə görə nazir Ceyhun Bayramov tərəfindən təşəkkür ifadə olunub, məhz Ermənistan tərəfindən imtina səbəbinə görə bu görüşün baş tutmamasının sülh prosesinə töhfə vermədiyi qeyd edilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər üzrə fikir mübadiləsi aparılıb.

## *Hikmət HACIYEV:* "Paşinyanın Londonda İlham Əliyevlə görüşdən imtinasını sülh gündəliyindən geri çəkilmək kimi qiymətləndiririk"

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev "Report"un sualını cavablandırıb:**

*- Hikmət müəllim, Avropa Siyasi İcmasının Londonda keçirilən görüşü çərçivəsində Ermənistanla Azərbaycan arasında görüşün keçirilməsi nəzərdə tutulurdu. Bu, baş tutacaqmı?*

- Avropa Siyasi İcmasına evsahibliyi edən Böyük Britaniya tərəfindən belə bir görüşün keçirilməsi təklifi ilə çıxış edilmişdir və bunun Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın baş naziri arasında baş tutmuş görüş formatında olması təklif olunurdu. Belə ki, Münxen Təhlükəsizlik Konfransında da Almaniyanın kansleri Olaf Şolts görüşün əvvəlində iştirak etmiş və bundan



sonra görüş ikitərəfli formatda Azərbaycan və Ermənistan arasında davam etmişdi. Böyük Britaniya tərəfindən ev sahibi olaraq eyni formatlı görüş təklif olunurdu.

Amma Ermənistan tərəfi bundan imtina etdi. Belə ki, görüşün əvvəlində Britaniya Baş nazirinin iştirakı, sonra isə görüşün Azərbaycan və Ermənistan arasında davam etməsi formatında olmalı idi. Ermənistanın bu görüşdən imtina etməsini biz onun dialoqdan və sülh gündəliyinin irəli aparılmasından geri çəkilmək niyyətinin bir təzahürü kimi qiymətləndiririk.

Müxtəlif platformalarda Ermənistan sülh haqqında danışdığı halda sülh gündəliyinin irəli aparılmasına xidmət edən görüşdən imtina etməsi heç bir halda başadüşülən deyildir və beynəlxalq ictimaiyyət özü bunu dəyərləndirməlidir ki, Ermənistan, əslində, dialoq imkanlarını qiymətləndirmək, irəli aparmaq əvəzinə bundan imtina edir. Biz Böyük Britaniyanın belə bir sülh təşəbbüslüyünü öz tərəfimizdən yüksək qiymətləndiririk.

## *Prezidentin köməkçisi:* "Böyük Britaniyanın sülh təşəbbüsünü yüksək qiymətləndiririk"

"Azərbaycan Böyük Britaniyanın sülh təşəbbüsünü yüksək qiymətləndirir".

Bunu "Report"un sualını cavablandıran Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev deyib.

Qeyd edək ki, Londonda Avropa Siyasi İcmasının görüşü çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşdən qarşı tərəf imtina edib. Görüşün keçirilməsi üçün təşəbbüslə Böyük Britaniya çıxış edib.

H.Hacıyev xatırladıb ki, belə bir görüşün Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Prezidenti



və Ermənistanın baş naziri arasında baş tutmuş görüş formatında olması təklif olunurdu.

"Belə ki, Münxen Təhlükəsizlik Konfransında da Almaniyanın kansleri Olaf Şolts görüşün əvvəlində iştirak etmiş və bundan sonra görüş ikitərəfli formatda Azərbaycan və Ermənistan arasında davam etmişdi. Böyük Britaniya tərəfindən ev sahibi olaraq eyni formatlı görüş təklif olunurdu", - o deyib.

Prezidentin köməkçisi qeyd edib ki, müxtəlif platformalarda Ermənistan sülh haqqında danışdığı halda sülh gündəliyinin irəli aparılmasına xidmət edən görüşdən imtina etməsi heç bir halda başadüşülən deyil və beynəlxalq ictimaiyyət özü bunu dəyərləndirməlidir.

## Ursula fon der Lyayen yenidən sədr seçildi

### Avropa Komissiyasının rəhbəri yeni 5 illik proqramını açıqlayıb

**Avropa Komissiyasının sədrliyinə namizəd Ursula fon der Lyayen Avropa Parlamentində yeni beşillik müddət üçün öz manifestini açıqlayıb. Onun Strasburqda Avropa Parlamentində etdiyi böyük nitqinin əsas mövzuları müdafiə, rəqabət qabiliyyəti və mənzil məsələləri idi.**

Növbəti beşillik müddət üçün proqramını elan etməklə, fon der Lyayen deputatları qarşıdan gələn səsvermədə onu dəstəkləməyə təşviq edəcəyinə ümid bəsləyirdi.

O, çıxışında bütün siyasi spektrin maraqlarına cavab verməyə çalışıb. Lyayen əsas parlament qruplarının ifadə etdiyi tələblərə uyğun olan bir çox layihələri və prinsipləri açıqlayıb. Buraya Avropa sənayesini inkişaf etdirmək üçün yeni fond yaratmaq, daha çox şirkətlərarası sövdələşmələrə imkan vermək üçün rəqabət qaydalarını yumşaltmaq, müdafiə komissarı postu yaratmaq və Avropa İttifaqı sərhədçilərinin sayını üç dəfə artırmaq vədləri daxildir.

Proqramında Ursula fon der Lyayen Ukraynanı xatırlayaraq, Avropanın təhlükəsizliyinə ən yaxşı sərmayənin "Ukraynanın təhlükəsizliyinə sərmayə olduğunu" vurğulayıb.

Ursula fon der Lyayen həmçinin növbəti beş il ərzində Aİ-nin ümumi müdafiə ittifaqının yaradılmasına diqqət yetirəcəyini vəd edir. Bura digər məsələlərlə yanaşı, müdafiə sənayesi bazasının, innovasiyaların və vahid bazarın gücləndirilməsi üçün səylərin dəstəklənməsi və əlaqələndirilməsi daxildir. O, həmçinin Avropa Komissiyasında müdafiə üzrə Avropa komissarı postunun yaradılması planlarını təsdiqləyib.

Bundan əlavə, fon der Lyayen dövlət satınalma qaydalarını dəyişdirərək "müəyyən strateji sektorlar üçün dövlət satınalmalarında Avropa məhsullarına" üstünlük vermək istəyir.

Proqramda immiqrasiya məsələsindən də bəhs edilir: "Biz tam funksional Avropa rəqəmsal sərhəd idarəçiliyi ilə Aİ-ni dünyanın ən mütərəqqi səyahət məkanına çevirəcəyik."

Ümum-Avropa mənzil böhranını aradan qaldırmaq üçün fon der Lyayen ilk dəfə mənzil komissarı vəzifəsini yaratmağı və əlverişli mənzil tikintisi üçün ümum-Avropa planını işə salmağı təklif edir.

Fon der Lyayenin fikrincə, bu ideyalar, ailələrin yaşayış dəyəri böhranından əziyyət çəkdiyi, sosial qütbləşmənin artdığı, iqlim dəyişikliyinin xaosa və təbii ehtiyatların tükənməsinə səbəb olduğu, habelə dünyada hökm sürən narahatlıq və qeyri-müəyyənliyə cavabdır: "Avropa bütün dünyada diktatorlara və demaqoqlara nəzarət edə bilməz, lakin öz demokratiyasını qoruya bilər. Avropa dünya seçkilərinin nəticəsini müəyyən edə bilməz, lakin o, öz qitəsinin təhlükəsizliyinin və müdafiəsinin gücləndirilməsinə sərmayə qoymağa diqqət yetirə bilər. Avropa dəyişiklikləri dayandıra bilməz, lakin o, yeni rifah əsrinə sərmayə qoymaqla və insanların həyat keyfiyyətini yaxşılaşdırmaqla onları qəbul edə bilər".

Son məlumata görə, çıxışlar bitdikdən sonra Ursula fon der Lyayenin ikinci müddətə seçilməsi üçün səsvermə keçirilib. Avropa Parlamenti Ursula fon der Lyayeni ikinci beşillik müddətə Avropa Komissiyasının sədri vəzifəsinə yenidən seçib.



Avropa Parlamentinin 401 üzvü fon der Lyayenin təyin edilməsinin lehinə, 284-ü əleyhinə səs verib, 15 deputat bitərəf qalıb, daha 7 səs isə etibarsız sayılıb. Yenidən seçilmək üçün Avropa Komissiyasının rəhbəri ən azı 361 səs toplamalı idi.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Ədalət meyarı

## Azərbaycan müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq mübarizəsinin qlobal platformasına çevrilib




**Əlverişli coğrafi mövqeyi, regional və beynəlxalq nəqliyyat yollarının üstündə yerləşməsi, təbii resursları, iqtisadi və hərbi gücü ilə Cənubi Qafqazın lider dövləti hesab olunan Azərbaycan bu gün həm də dünyada etibarlı tərəfdaş, təşəbbüskar dövlət kimi qəbul olunur. Bunun da yeganə səbəbi son 21 ildə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasətdir.**

Azərbaycan Prezidentinin sözünə və vədinə sadiqliyi, irəli sürdüyü qlobal təşəbbüsləri ölkəmizin nüfuzunu və siyasi çəkisini gündən-günə artırmaqdadır.

Bu gün dünyanın siyasi xəritəsində elə bir Azərbaycan var ki, onun dəstəyi olmadan, rəyi nəzərə alınmadan hər hansı regional prosesləri müzakirə və həll etmək mümkün deyil. İstənilən mövzulu qlobal danışıqların aparıldığı platformalarda ölkəmiz mütləq təmsil olunur və əsas söz sahibi kimi çıxış edir. Buna görə də Azərbaycanı regionun təhlükəsizlik zəmanəti adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər. Bütün bunlar bir daha təsdiq edir ki, İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı müasir dünyanın yeni çağırışlarına cavab verən ölkəyə çevirib.

Azərbaycan həm də humanizm prinsiplərinə əsaslanan siyasət yürütməklə dünyanı narahat edən qlobal problemlərin həllində daim aktivlik nümayiş etdirir. Eyni zamanda dünyaya ədalət çağırışı edən, dövlətləri həmrəyliyə, qlobal problemlərin həllində mütəşəkkillik göstərməyə çağıran ölkə kimi tanınır. Bunu Qoşulmama Hərəkatına sədrliyi dövründə İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslər, təkliflər bir daha təsdiq edir. Lakin etiraf etməliyik ki, Qoşulmama Hərəkatına sədrlikdən xeyli öncə də Azərbaycan dünyaya çağırış edərək tarixi ədalətin bərpa edilməsini istəyirdi. Yəni keçmiş Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün ölkəmiz 30 il beynəlxalq təşkilatlara yorulmadan müraciət etdi, onlardan müsbət cavab gözlədi. Amma tarix göstərdi ki, ədalət yalnız gücdədir və gücün varsa, ədalət sənin yanında olacaq.

2020-ci ildə BMT-nin illər öncə qəbul etdiyi qətnamələri öz gücünə reallığa çevirən Azərbaycan tarixi ədaləti bərpa edəndə dünyaya böyük səs-küy düşdü. Amma Azərbaycan dünyaya göstərdi ki, heç bir ölkənin ərazisində gözü yoxdur, yalnız öz qanuni torpaqlarını terrorçulardan təmizləyir. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra isə regionda yaranan reallıqlar hər kəs tərəfindən qəbul edildi. Çünki Azərbaycan regiona sülh gətirdi, təhlükəsizliyin təmin olunması üçün ortaya güc qoydu.

Bu gün də Azərbaycan xoşməramlı missiyasını davam etdirməkdədir. Dünya birliyindən ədalət istəyən, hansısa dövlətlərin müstəmləkəçiliyində əzilmək istəməyən, haqlarını tələb edən bəzi ölkələrə hərtərəfli dəstək göstərməklə onlara sahib çıxır.

Elə Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da yaradılan Bakı Təşəbbüs Qrupunun fəaliyyəti də bunun əyani göstəricisidir. Bakı Təşəbbüs Qrupu artıq bir ildir ki, müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir. Bu xüsusda, BTQ tərəfindən artıq 15-dək beynəlxalq konfrans təşkil edilib. Onlardan 4-ü BMT-nin Nyu York, Cenevrə və Vyanadakı qərargahlarında, biri İstanbulda, digərləri isə Bakıda təşkil olunub.

Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə iyulun 17-18-də Bakıda keçirilən ilk qurultay müstəqillik hərəkatlarının tarixində ilk dəfə təşkil olunub.

Çünki müasir dövrdə bu cür genişmiqyaslı tədbirlər nadir hallarda baş tutur. Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə keçirilən bu toplantı bir daha sübut edir ki, Bakı artıq müstəmləkəçiliklə mübarizə fəaliyyətlərinin və dekolonizasiya proseslərinin mərkəzinə çevrilib. İlk qurultay koloniyalarda Fransa hökuməti tərəfindən bu ərazilərin sahibləri olan yerli xalqlara qarşı törədilən çoxsaylı cinayətlər və qeyri-qanuni hərəkətlər barədə beynəlxalq ictimaiyyətin məlumatlılığının artırılmasına, ümumilikdə XXI əsrin bəlalarından biri olan kolonializm probleminə diqqət çəkməyə töhfə verəcək.

Bütün bunlar İlham Əliyevin həyata keçirdiyi humanizm siyasətinin tərkib hissəsidir. Qoşulmama Hərəkatına sədrlik zamanı bir çox qlobal miqyaslı təşəbbüslər irəli sürən və onların əksəriyyətini reallığa çevirən Azərbaycan hazırda mötəbər tədbir olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasına hazırlaşır.

Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycan COP29 zamanı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq və konsensusa nail olmaq üçün səylərini əsirgəməyəcək. Bu mötəbər toplantıda bir daha ölkəmizdən dünyaya həmrəylik çağırışı ediləcək.

Bir sözlə, artan nüfuz, güc, iqtisadi qüdrət Azərbaycanı həm də müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq mübarizəsinin qlobal platformasına çevirib desək, yanılmarıq. Bütün bunlar isə İlham Əliyevin yürütdüyü mütərəqqi siyasətin tərkib hissəsidir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Qərbi azərbaycanlılar əmindirlər ki, dədə-baba yurdlarına qayıdacaqlar

**Ölkəmizin ictimai-siyasi həyatında diqqətçəkən fəaliyyəti ilə gündəmdə olan Qərbi Azərbaycan İcması sovet dönəmində Ermənistan adlandırılan qədim Azərbaycan torpaqlarında vandalizmlə üzləşən, dədə-baba yurdlarından zorla qovulan qaçqınların, deportasiyalara məruz qalan insanların beynəlxalq qanunlar çərçivəsində pozulmuş hüquqlarının bərpasına çalışır. İcmanın iyulun əvvəllərində Beynəlxalq Frankofoniya Təşkilatının Parlament Assambleyasının Azərbaycanı "etnik təmizləmədə" ittiham edən qətnaməsinə etiraz etməsi bu sıradan olan nümunələrdəndir.**

Beynəlxalq Frankofoniya Təşkilatının Parlament Assambleyasına və dünyanın nüfuzlu insan hüquqları qurumlarına ünvanlanan bəyanatında Qərbi Azərbaycan İcması sözügedən qərəzli və böhtan xarakterli sənədin qəbulunu pisləyərək bildirmişdir: "Göründüyü kimi, Ermənistan və Fransa beynəlxalq hüquqa zidd siyasətləri üçün Beynəlxalq Frankofoniya Təşkilatından sui-istifadə etməkdə davam edirlər.

Ermənistanın bir tərəfdən sülhdən, sülh müqaviləsindən danışıb, digər tərəfdən Azərbaycana qarşı belə pozuculuq əməlləri ilə məşğul olması bir sıra suallar doğurur.

Qərbi Azərbaycan İcması əsas missiyası mədəniyyət sahəsində qarşılıqlı anlaşmanın təşviqinə xidmət etmək olan Beynəlxalq Frankofoniya Təşkilatını bəzi dairələrin siyasi gündəliyi üçün sui-istifadə edilməsinə yol verməməyə çağırır".

Qərbi Azərbaycan İcması respublikamızın kənd, qəsəbə və şəhərlərindən tutmuş, xarici ölkələrdə belə görüşlər keçirir, Qərbi Azərbaycandan dədə-baba yurdlarından didərgin salınmış, qaçqın düşmüş insanların ailə üzvləri ilə yaxından tanış olur, onların pozulmuş hüquqlarını aidiyyəti beynəlxalq insan hüquqları müdafiəsi qurumlarına, habelə dünya ictimaiyyətinə çatdırırlar. Mövzunun aktuallığını gündəmdə saxlamaq üçün müntəzəm olaraq simpoziumlar, konqreslər, görüşlər keçirilir, sərgilər, festival-konqreslər, habelə bir-birindən maraqlı müxtəlif maarifləndirici tədbirlər təşkil olunur. Belə tədbirlərdən biri cari il iyulun ikinci ongünlüyündə icmanın Naxçıvan Muxtar Respublikasında keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresi olmuşdur. Maraqla qarşılanan festival zamanı keçirilən olimpiadada məqsəd Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, tarixi şəxsiyyətləri, toponimləri, folkloru haqqında maarifləndirmə işlərini aparmaq və biliklərin dərindən öyrənilməsini təmin etmək olub.

Olimpiadanın qalibləri ilə görüşdə çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli bildirmişdir ki, son 200 ildə ata-baba torpaqlarından zorla qoparılan soydaşlarımız, onların yaşadıqları ağrı-acı ilə bağlı gənclərin məlumatlılığı Qərbi Azərbaycana geniş maraq göstərmələri üçün milli ruhun yüksək səviyyədə olması və vətənə bağlılığın göstəricilərindən biridir. O qeyd edib ki, Qərbi Azərbaycan tarixinin, mədəniyyətinin gənc nəslə ötürülməsində sözügedən olimpiada mühüm əhəmiyyət daşıyır.

Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, olimpiadanın keçirilməsində mühüm rola malik Məlahət İbrahimqızı çıxışında gənclərin ümummilli məsələmiz olan Qərbi Azərbaycanla bağlı geniş marağını təqdir edərək onlara bundan sonrakı fəaliyyətləri və olimpiadalar zamanı uğurlar arzulayıb, bildirib ki, bu, onların da gələcək nəsillərə ötürməli olduqları müqəddəs missiyadır. Olimpiadada 10 mindən çox şagird iştirak edib.

Qaliblərə Qərbi Azərbaycan İcması adından hədiyyə və mükafatlar təqdim olunub.

Qərbi Azərbaycan ərazisinin əzəli və yerli sakinlərinin Azərbaycan türkləri olmasına baxmayaraq, ora köçürülən ermənilər XX əsrin əvvəllərindən başlayaraq azərbaycanlıları öz doğma yurdlarından didərgin salmaq üçün himayədarlarının əli ilə özlərinin məkrli niyyətlərini həyata keçiriblər. Ermənilərin maraqlarına uyğun olaraq 1948-1953-cü illərdə Qərbi Azərbaycandan (Ermənistan SSR) 150 mindən artıq azərbaycanlı, o cümlədən 1988-1994-cü illərdə bir milyondan artıq azərbaycanlı öz doğma ata-baba yurdlarından zorla çıxarılmış və onlar qaçqın və məcburi köçkün halında Azərbaycanın bölgələrində məskunlaşmışlar. Ermənilərin azərbaycanlılara qarşı müxtəlif illərdə törətdikləri zorakı hərəkətlərin, xüsusilə azərbaycanlıların öz doğma yurdlarından zorla qovulmasının əsl qiyməti xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən verilmişdir. Azərbaycanlıların Qərbi Azərbaycandan zorla köçürülməsi dövrünü araşdırıb tarixi həqiqətləri üzə çıxarmaq üçün Ulu Öndər "1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci ildə fərman imzalamışdır. Ermənilərin zorakı hərəkətlərinə dövlət səviyyəsində qiymət verən, Azərbaycanın erməni işğalı altında olan torpaqlarının sülh yolu ilə qaytarılması üçün öz səyini əsirgəməyən Heydər Əliyev demişdir: "Xalqımız daim bilməlidr ki, bizim tarixi torpaqlarımız hansılar olubdur. Hansılar, nə vaxt əlimizdən gedibdir, niyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qaytarılmalıdır. Biz qaytara bilməsək, gələcək nəsillər bunları qaytaracaqlar".

İndi bu istiqamətdə məqsədyönlü işlər aparılır. Elə bu günlərdə Ulu Öndərin dedikləri fəaliyyətinin ana xəttini təşkil edən Qərbi Azərbaycan İcmasında Müstəqil Sənayeçi və İş adamları Dərnəyinin (MÜSİAD Azərbaycan) nümayəndələri ilə görüş olub.

Qərbi Azərbaycan İcması (QAİ) İdarə Heyətinin sədri Əziz Ələkbərli qonaqlara icma barədə ətraflı məlumat verib, soydaşlarımızın geri qayıdışı istiqamətində aparılan işlərə toxunub. Bildirib ki, icma istər ölkə daxilində, istərsə də beynəlxalq ictimaiyyət səviyyəsində öz torpaqlarından zorla qovulmuş qərbi azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı uğrunda apardığı intensiv işini davam etdirir. Bu baxımdan, dərnəyin nümayəndələri ilə bugünkü təmasın əhəmiyyətli olduğunu diqqətə çatdıran sədr icmanın digər təşkilatlarla da əməkdaşlığına dair qısa açıqlamalar verib.

MÜSİAD Azərbaycanın İdarə Heyətinin sədri Rəşad Cabirli təmsil etdiyi qeyri hökumət təşkilatı barədə ətraflı bəhs edərək bildirib ki, 9 may 1990-cı ildə İstanbulda qurulan, Türkiyədə 84, 81 fərqli ölkədə isə ümumilikdə 165 məntəqədən ibarət dərnək qərbi azərbaycanlıların haqq işinə dəstək verməyə hazırdır və bununla bağlı müzakirələrin davam etdirilməsi üçün addımlar atılır.

QAİ Nəzarət-Təftiş Komissiyasının sədri, professor Vahid Novruzov görüşdə bildirmişdir ki, Azərbaycandakı yerli icmaların Qərbi Azərbaycan İcması ətrafında sıx birləşməsi ilə yanaşı, haqq işimizdə diasporumuzun da yaxından iştirak etməsi böyük önəm daşıyır. Bu baxımdan, bugünkü görüş sözügedən istiqamətdə atılan daha bir addımdır.

QAİ İdarə Heyəti sədrinin müavini Hikmət Babaoğlu isə çıxışında Türkiyənin Qars şəhərinə olan səfərini xatırlamaqla qardaş Türkiyənin həmin bölgələrində çoxlu qərbi azərbaycanlının olduğunu bildirmiş, MÜSİAD tərkibində olan iş adamları kimi onların da bu prosesdə yaxından iştirak etmək üçün fəaliyyət göstərmələrini təqdir etmişdir.

Hər iki tərəfdən çıxış edən digər iştirakçılar da QAİ və MÜSİAD arasında əməkdaşlığın bundan sonra daha sıx formada həyata keçirilməsinin konturlarını nəzərdən keçirmiş, habelə işçi qrupunun yaradılmasına, gələcək əməkdaşlıq imkanlarının təhlilinə və təkliflərin hazırlanmasına dair fikir mübadiləsi aparırmışlar.

Görünən odur ki, Müzəffər Ali Baş komandan İlham Əliyevin qətiyyəti və ordumuzun şücaəti ilə erməni işğalından azad edilmiş Qarabağa qayıdışdan qürur duyan qərbi azərbaycanlılar əmindirlər ki, gün gələcək onlar da qaçqın düşdükləri dədə-baba yurdlarına sevinclə, musiqi sədaları altında qayıdacaqlar.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Paşinyan sülhdən qaçır

**Regionda sülhün bərqərar olması istiqamətində bütün danışıqlarda iştirak etməklə yanaşı, həmçinin əməli addımlar atan Azərbaycandan fərqli olaraq Hayastanın "fəaliyyəti" sülhdən yayındığını açıq-aydın göstərir. Sülhə doğru bir addım daha irəliləmək üçün Prezident İlham Əliyev rəsmi, qeyri-rəsmi şəkildə görüşlərə razılıq verərək Hayastana bunun üçün imkan yaradır. İrəvan isə ona verilən şansı dəyərləndirə bilmir.**

Avropa Siyasi İcmasının Londonda keçirilən görüşü çərçivəsində Hayastanla Azərbaycan arasında görüşün keçirilməsi nəzərdə tutulsa da, Paşinyan bundan imtina etdi. O, bununla göstərdi ki, İrəvan sülh istiqamətində əməli addımlar atmaq yerinə, hər zamankı kimi sülhpozucu fəaliyyətlə məşğuldur. Bu isə bir daha təsdiqləyir ki, Hayastan sülh istəmir.

İndiki mərhələdə Hayastan iqtisadi, siyasi, geosiyasi və hərbi sferalarda çox çətin duruma düşüb. Hər tərəfdə yaranmış problemlərin altında əzilən ölkənin baş naziri Nikol Paşinyan çıxış yolunu Qərbə sığınmaqda görür, onun verdiyi vədlərə güvənir. Hər halda, Paşinyan hakimiyyətinin xarici siyasəti onun konkret seçim etdiyini göstərir. Bu ölkə Rusiyanın xeyrinə olmayan istiqamətdə israrlı davranmağa çalışır.

Elə bunun nəticəsidir ki, Qərb Hayastanda növbədənkənar parlament seçkilərinin daha erkən keçirilməsini tələb edir. Qeyd edilir ki, rəsmi dairələrdə Qərbdən Ermənistanda növbədənkənar parlament seçkilərinin keçirilməsi tələbi ilə bağlı məlumatlar dolaşır. Məlumata görə, Hayastanın hakim Vətəndaş Cəmiyyəti Partiyasının darçərçivəli iclaslarından birində baş nazir Nikol Paşinyan gələn il seçkilərin keçiriləcəyini istisna etmədən qısaca olaraq fövqəladə vəziyyət mövzusuna toxunub. Qəzet yazıb ki, Paşinyan zamanın onun iqtidarının əleyhinə işlədiyini bilir. Yeni müxalifət qüvvəsinin formalaşma ehtimalı artır, ona görə də müxalifəti təəccübləndirmək qərarına gəlib.

Baş nazir Nikol Paşinyan dövlət çevrilişi təhlükəsinin getdikcə daha da artdığının fərqindədir. Ona görə də o, əlində olan bütün inzibati müqavimət resurslarını hərəkətə gətirib və revanşistlərin ölkədə hakimiyyəti dəyişə bilməyəcəyini bildirib: "Mən feodal-klerikal elitaya səslənirəm. Siz Hayastanda hakimiyyət dəyişikliyini həyata keçirə bilməyəcəksiniz. Çünki siz artıq çox gücsüzsünüz".

"Hraparak" nəşri isə yazıb ki, Hayastanın hakim "Vətəndaş Müqaviləsi" Partiyasının üzvləri məzuniyyətdən qayıtdıqdan sonra payız siyasi mövsümünü keçmiş hakimiyyət nümayəndələrini, xüsusən də sabiq prezident Robert Koçaryanı məsuliyyətə cəlb etməklə açmağı planlaşdırırlar.

Nəşr hakim partiyaya yaxın mənbələrindən öyrənib ki, qarşıdan gələn seçkilər öncəsi keçmiş talançılar mövzusu yenidən gündəmə gətiriləcək və məhkəmə sistemində baş verən son qırğınlar, xüsusən də İrəvan Ümumi Yurisdiksiya Məhkəməsinin hakimi Anna Danibekyanın səlahiyyətlərinin dayandırılması bununla bağlıdır.

Bildirilib ki, "Ali Məhkəmə Şurası Danibekyanı "məhkəmə təcrübəmizin tarixində ən mühüm işlərdən biri" olan Robert Koçaryanın işini uğursuz etməkdə ittiham edib. Hakimiyyətdə düşünürlər ki, aşağı düşmüş reytinqlərini az-çox yüksəltmək şansı Koçaryan və keçmiş hakimiyyət nümayəndələri amilini yenidən oynamaqla bağlıdır. Bununla müharibəni, məğlubiyyəti və ondan sonrakı bütün bədbəxtlikləri keçmiş hakimiyyət nümayəndələrinə və onların talanlarına yeni, yenilənmiş şəkildə bağlamağa çalışacaqlar ki, növbəti seçkilərdə xalqın səsini qazansınlar.

Göründüyü kimi, sülh müqaviləsini uzatmağa çalışan Hayastan tarixinin ən ağır və əzablı günlərini yaşayır. Hazırda ölkədə bütün sahələrdə ciddi və dərin xaos hökm sürür. Bütövlükdə proseslərin gedişi İrəvanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Bayden seçkilərdən geri çəkilir?

## ABŞ Prezidentinin tərəfdarlarının sayı azalır

**İyulun 13-də seçki kampaniyası çərçivəsində mitinq zamanı sui-qəsdə uğrayan sabiq prezident Donald Trampın dəstəkçilərinin sayı hər ötən gün artır. Artıq Baydendən üz döndərənlər çoxalmaqdadır. Demokrat Partiyasından namizəd, ABŞ-nin hazırkı Prezidenti Co Baydenin keçmiş tərəfdarları belə seçkilərdə Trampın qalib gələcəyini düşünürlər.**



Noyabrın 5-nə təyin olunmuş prezident seçkilərində Donald Trampın qalib gəlmə ehtimalının yüksək olduğunu siyasətçilərlə yanaşı, seçicilər də təsdiqləyirlər. Respublika Partiyasının keçirilmiş qurultayında namizədliyi rəsmən təsdiqlənən Donald Trampın həm Baydenlə teledebatından, həm də keçirilmiş rəy sorğularından sonra sabiq prezidentin qalibiyyəti gözlənilir. Xüsusən debatdakı çıxışı və ona qarşı təşkil olunan sui-qəsd cəhdindən sonra buna inananların sayı artıb.

Teledebatdakı çıxışı ilə bağlı tənqidlərə məruz qalan ABŞ Prezidenti Co Bayden isə bu məğlubiyyətini tədbirdən bir müddət əvvəlki xarici səfərləri ilə əlaqələndirmişdi. "Debatdan bir az əvvəl dünyanı gəzməyə qərar verdim. Köməkçilərimə qulaq asmadım və səhnədə az qalmışdı ki, yuxuya getdim", - deyə Bayden vurğulamışdı. Həmin vaxtdan başlayan tənqidlərə, təzyiqlərə baxmayaraq, Bayden respublikaçı Donald Tramp üzərində qələbəsinə əmin olduğunu və seçkilərdən geri çəkilmək niyyətində olmadığını bildirmişdi. O, bəzilərinin onu seçkilərdə iştirakdan imtinaya sövq etməyə çalışdığını vurğulayaraq, yarışda qalıb Donald Trampa qalib gələcəyini qeyd etmişdi.

Sabiq prezidentin tərəfdarlarının sayı artdıqca Baydeni dəstəkləyənlərin sayı azalır. Bundan əlavə, Co Baydenin namizədliyini geri çəkməsi ilə bağlı təkliflər də çoxdur.

ABŞ Prezidenti Co Baydenin debatından sonra Demokrat Partiyasının əsas donorları da 90 milyon dollarlıq ianələri dondurmuş, onu geri çəkilməyə çağırmışdılar. Senatın bəzi nümayəndələri Baydenin yenidən prezident seçilmək istəyi ilə partiyanın gələcəyini riskə atdığını bildiriblər. Məlumatlara əsasən, ABŞ qanunverici orqanındakı demokrat liderlər Baydenlə təkbətək görüş zamanı onun seçkidə iştirakının Demokrat Partiyasının Konqresin hər iki palatasına nəzarət etmək imkanını təhlükə altına qoyduğunu deyiblər. Bu da öz növbəsində respublikaçılara öz təşəbbüslərini irəli sürmək üçün daha çox azadlıq verəcək.

Bundan başqa, ABŞ-də "ABC News", "Washington Post" və "Ipsos" tərəfindən 5-9 iyul tarixləri arasında ölkə daxilində keçirilmiş sorğu əsasında respondentlərin 85 faizi Baydenin ikinci dəfə prezident olmaq üçün çox yaşlı olduğunu deyiblər. Eyni zamanda iştirakçıların 67 faizi noyabrda keçiriləcək prezident seçkilərində onun namizədliyini geri götürməli olduğunu bildirib.

Qeyd edək ki, Baydenin seçkilərdən geri çəkilməsi ilə bağlı çağırışlar onun iyunun 27-də Trampla seçkiqabağı televiziya debatındakı nəticələrindən sonra başlayaraq, getdikcə genişlənməkdədir. Demokratlar ABŞ Prezidentinə postu saxlamaq cəhdlərindən əl çəkməsini məsləhət görürlər. Ümumilikdə Baydeni seçkilərdən geri çəkilməyə səsləyən Demokrat Partiyası üzvlərinin sayı 20-ni keçib. Beləliklə, demokratlar artıq yeni namizəd axtarışındadırlar.

### COVID-ə yoluxan Baydenin qərarı nə olacaq?

Ötən gün Co Baydenin COVID-19-a yoluxması xəbəri də onun namizədliyi məsələsini daha da gündəmə gətirib. Bayden Donald Trampla debatdakı məğlubiyyətindən sonra səhhəti ilə bağlı problem yaranacağı təqdirdə seçkilərdən geri çəkiləcəyini demişdi. Bundan sonra Ağ Evin sözçüsü Karin Jan-Pyer Baydenin Las Veqasdakı tədbirdən sonra analiz verdiyini və COVID testinin müsbət olduğunu açıqlayıb. O bildirib ki, Bayden koronavirus əleyhinə peyvənd olunduğu üçün onda yüngül simptomlar müşahidə olunur.

Ağ Evdən isə Baydenin vəziyyəti ilə bağlı tez-tez məlumat paylaşacağı bildirilib. İlkin məlumat isə budur ki, Bayden yuxarı tənəffüs yolu infeksiyası ilə bağlı müalicəyə başlayıb, onun hərarəti və nəbzi normaldır.

Səhhətində problem yaranan Baydenin mübarizəni dayandıracağı fikirləri indi daha inandırıcı görünür. Çünki debatdan sonrakı bəyanatı eyni zamanda tərəfdarlarının sayının sürətlə azalması, partiyası tərəfindən təzyiqlər onun prezidentliyə namizəd olacağına inamı azaldır.

### Sui-qəsd cəhdi ilə bağlı yeni iddialar

Donald Trampa qarşı su-qəsd cəhdi ilə bağlı araşdırmalar davam etdiyi vaxtda müxtəlif iddialar ortaya atılır. Son məlumatlara əsasən, sabiq prezident Donald Trampa qarşı sui-qəsd cəhdində şübhəli bilinən Tomas Metyu Kruks atəş açmazdan əvvəl hüquq-mühafizə orqanları tərəfindən şübhəli kimi müəyyən edilib. Hadisənin Məxfi Xidmətin onu damda gördükdən 20 dəqiqə sonra həyata keçirildiyi iddia edilir.

Vayominq senatoru Con Barrasso bildirib ki, Tomas hücumu həyata keçirməzdən bir saatdan çox əvvəl bel çantası və əlində olan məsafəölçən ilə Təhlükəsizlik Xidməti tərəfindən şübhəli şəxs kimi müəyyən edilib. Barrasso ABŞ Məxfi Xidmət rəisi Kimberli Çitlın istefasını istəyərək, bu hadisənin Məxfi Xidmət adına tam səriştəsizlik olduğunu qeyd edib.

Tennessi ştatından respublikaçı senator Marşa Blekbern də sosial şəbəkə hesabında Trampın səhnəyə çıxmamışdan əvvəl Məxfi Xidmətin belə bir təhlükədən xəbərdar olduğunun onu dəhşətə gətirdiyini yazıb. O da K.Çitlı istefaya çağıraraq onun rəhbərliyinə inamı olmadığını və istefa verməsinin millətin xeyrinə olacağını qeyd edib.

Bununla yanaşı, sui-qəsd cəhdindəki təhlükəsizlik pozuntularına kimin cavabdeh olması ilə bağlı federal və yerli hakimiyyət orqanları arasında da gərginlik artır. Məxfi Xidmət iddia edir ki, yerli polis hadisə yerini mühafizə etmək üçün məsuliyyət daşıyır. Amma yerli mühafizə orqanlarının Trampın olduğu əsas binanın kənarında patrul maşını yerləşdirmək üçün resursları olmadığını əvvəldən Məxfi Xidmətə bildirdiklərini iddia edirlər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Bakıda Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılması ilə bağlı Bəyannamə imzalanıb

**Məlumat verildiyi kimi, Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 20-yə yaxın siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə iyulun 17-18-də Bakıda Birinci Qurultay keçirilib.**

AZƏRTAC xəbər verir ki, iki gün davam edən qapalı müzakirələrin yekunu olaraq Fransa koloniyalarında müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatların rəhbər şəxsləri vahid cəbhənin - Fransa Koloniyalarının Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılmasına dair razılığa gəliblər.

Qurultayda iştirak edən Fransa və Niderlandın 17 koloniyasının səlahiyyətli rəsmiləri Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılması haqqında yekun Bəyannaməni imzalayıblar. Həmçinin iştirakçılar cəbhənin Nizamnaməsini təsdiqləyibər.

Bəyannamədə ölkəmizin dekolonizasiya prosesindəki vacib rolu, habelə Bakı Təşəbbüs Qrupunun müstəmləkə ərazilərinin azadlığı uğrunda apardığı mübarizəyə verdiyi dəstək və sadiqlik xüsusi vurğulanıb, Azərbaycana minnətdarlıq ifadə olunub.

Sənəddə Fransa kolonializminin irqçi və repressiv siyasəti pislənilib, bu xüsusda Yeni Kaledoniya və digər müstəmləkə ərazilərində Fransa hökuməti tərəfindən həyata keçirilən cinayətlər kəskin qınanılıb.

Beynəlxalq Azadlıq Cəbhəsinin təsis olunması Fransa müstəmləkəçiliyinə qarşı mərkəzləşdirilmiş platformanın, vahid çətirin yaradılması deməkdir. Qurultay iştirakçıları müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə Fransa kolonializminə qalib gələrək müstəqillik əldə etmək yolunda fəaliyyətlərinin əlaqələndirilməsinə qərar veriblər.

Hazırda müstəmləkə altındakı digər ərazilər üçün üzvlüyə açıq olacaq cəbhə Fransa koloniyalarının dekolonizasiya prosesində səylərini birləşdirmək və öz müqəddəratlarını təyinetmə məsələlərini dünya ictimaiyyətinə dolğun şəkildə çatdırmaq məqsədi daşıyır. Bundan başqa, cəbhənin gələcək fəaliyyətinə müstəmləkəçiliyin aradan qaldırılmasına dair strategiyanın, o cümlədən Fəaliyyət Planının və gündəliyinin hazırlanması, beynəlxalq təşkilatlara təqdim edilməsi kimi məsələlər daxildir.

Qeyd edək ki, Fransa Koloniyalarının Qurultayının keçirilməsi məhz Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə lokomotiv rolunu üzərinə götürərək dekolonizasiya prosesinə verdiyi töhfələrin nəticəsidir.

Xatırladaq ki, Bakı Təşəbbüs Qrupu Fransa müstəmləkələrinin azadlıq uğrunda ədalətli mübarizəsinə dəstəyini davam etdirir.

## Jan-Jakob BİSEP:
### "Fransa bəşəriyyətə qarşı cinayətlər üzrə "çempiondur"

**"Biz siyasi qurumlar, təşkilatlar olaraq əlimizdən gələni edəcəyik ki, öz mübarizəmizdə irəliləyək. Ölkəmizə geri qayıdanda mübarizəmizi özümüz aparacağıq. Hamımızın istədiyi ölkəmizin müstəqilliyidir".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin Baş katibi Jan-Jakob Bisep həmin birliyin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan şəxslərin iştirakı ilə Bakıda Birinci Qurultay çərçivəsində keçirilən mətbuat konfransı zamanı deyib.

"Bizim səsimiz beynəlxalq səviyyədə eşidiləcək. Fransa özünü insan hüquqları üzrə "çempion" adlandırır, amma məncə o, bəşəriyyətə qarşı cinayətlər üzrə "çempion"dur. Biz bütün bunları beynəlxalq ictimaiyyətə çatdıracağıq", - deyə Jan-Jakob Bisep vurğulayıb.

## Mikael FORREST:
### "Bu gün Fransa kolonializmindən əziyyət çəkənlər üçün yeni səhifə açılır"

**"Bu gün Fransa kolonializmindən əziyyət çəkənlər üçün vacib gündür. Artıq bizim üçün yeni səhifə açılır".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Yeni Kaledoniyanın xarici işlər naziri Mikael Forrest Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan şəxslərin iştirakı ilə Bakıda birinci Qurultay çərçivəsində keçirilən mətbuat konfransı zamanı söyləyib.

"Biz bir çox istiqamətdə fəaliyyət göstərəcəyik, həmçinin konfranslar təşkil edəcəyik. Bununla da biz özümüzdən, problemlərimizdən danışacağıq və səsimizi dünyaya çatdıracağıq. Bu gün burada sizin qarşınızda olan xalqların nümayəndələri bunları edəcəklər", - deyə Mikael Forrest diqqətə çatdırıb.

## Fransanın müstəmləkəçilik siyasətinə etirazlar güclənir

**Demokratiyadan, haqdan, ədalətdən uzaq olduğunu Fransa hökuməti istər daxili, istərsə də xarici siyasəti ilə açıq şəkildə nümayiş etdirir. Bu ölkə illərdir ki, beynəlxalq prinsiplərə riayət etməyi başqalarından tələb edir, özü isə saya salmır.**



Emmanuel Makron hökumətinin bədnam, məkrli əməllərindən biri Cənubi Qafqazla bağlıdır. Siyasi maraqlarına görə ölkəsinə uzaq olan bu regionda münaqişələrin aradan qalxmasını, problemlərin həllini tapmasını əngəlləməyə cəhdlər göstərir. Azərbaycan və Ermənistan arasında münasibətlər normallaşmaqda, sülh müqaviləsinin imzalanması yaxınlaşmaqdadır. Fransa hökuməti isə bundan pəjmürdə olur, Ermənistan vasitəsilə vəziyyəti yenidən gərginləşdirməyə can atır. Prezident İlham Əliyevin bildirdiyi kimi, qanlı cinayətlərlə zəngin kolonializm tarixinə görə utanmalı olan Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə, digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır: "Bu ölkə BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur".

Bu, rəsmi Parisin yaramaz siyasəti və xislətidir. XXI əsrdə də müstəmləkəçilik siyasətini davam etdirən rəsmi Paris əsarəti altında saxladığı xalqlara öz ölkələrində azad yaşamağa, rahat işləməyə imkan vermir. Ancaq son zamanlar həmin ölkələrin əhalisi dövlət müstəqilliyini bərpa etmək, milli azadlığa nail olmaq uğrunda daha qətiyyətlə mübarizə aparırlar.

Son hadisələr göstərir ki, Fransa hökuməti məkrli əməllərindən əl çəkməməkdə, müstəmləkəçilik siyasətini sürdürməkdə israrlıdır. Ancaq bütün bunlar düşdüyü girdabı daha da dərinləşdirməkdən, daha çox uğursuzluğa düçar olmaqdan başqa heç nəyə yaramır. Bu ölkənin müstəmləkəçilik siyasətindən əziyyət çəkən, zülmlər, işgəncələr, qətllər, qarətlər, qırğınlar görən xalqlar bu gün müstəmləkə zəncirlərini qırıb atmağa, azadlığa çıxmağa, öz haqq səslərini bütün dünyaya eşitdirməyə çalışırlar.

Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə iyulun 17-18-də Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə Bakıda keçirilən Birinci Qurultay bu baxımdan əhəmiyyətli oldu. Qurultayın keçirilməsi ideyası Fransanın dənizaşırı ərazilərinin müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatlarına məxsusdur. Niderland koloniyaları olan Bonayre və San-Martin adalarından 3 təşkilat qurultayın işində fəxri qonaq qismində iştirak etdi.

Qurultayda açılış nitqi ilə çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov Yeni Kaledoniyada baş verən son iğtişaşlar zamanı Fransa polisi tərəfindən müstəqillik hərəkatlarının üzvlərinin qanunsuz həbs olunduğunu vurğuladı. Onlarla terrorçu kimi davranılıb və gizli şəkildə Parisə aparılaraq müxtəlif işgəncələr verilib. Aralarında azyaşlı uşaqları olan qadınlar da var. Bakı Təşəbbüs Qrupu siyasi məhbusların ailələrinə və onları müdafiə edən vəkillərə yardım göstərəcəyini bəyan etdi.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru tədbirdə həmin siyasi məhbusların bəzilərinin ailə üzvlərinin qurulyatda iştirak etdiklərini də diqqətə çatdırdı: "Bakı Təşəbbüs Qrupu Fransa koloniyalarında yaşayan gənclərə Azərbaycanın ali təhsil müəssisələrində təhsil almaq imkanı verən tələbə-təhsil təqaüdü elan edib. Artıq bu ildən başlayaraq həmin ərazilərdən olan gənclər bu təqaüddən yararlana bilərlər".

Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin Baş katibi Jan-Jakob Bisep Bakıda belə bir qurultayın keçirilməsinə dəstək göstərdiyi üçün Azərbaycan hökumətinə təşəkkürünü bildirib: "Azərbaycan cəsarətli addımlar atır. BMT-nın çətiri altında Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə biz ilk dəfə Bakıda belə bir tədbir keçiririk".

Jan-Jakob Bisep qurultayın tarixi xarakter daşıdığını qeyd edib: "Biz kolonializmə qarşı birlikdə mübarizə apara bilərik. Bizim məqsədimiz dünya ictimaiyyətinin diqqətini bu məsələyə yönəltməkdir. Biz əlimizdən gələni edəcəyik ki, həmrəyliyimizi möhkəmləndirək, dünyada daha çox görünə bilək. Fransa koloniyalarına qarşı cinayətlər törədən dövlətdir. Məqsədimiz dünyanı Fransaya təsir göstərmək üçün səfərbər etməkdir".

Tədbir "Yeni Kaledoniyanın müstəqillik yolu və yeni çağırışlar" mövzusunda müzakirələrlə davam etdi. Yeni Kaledoniyanın xarici işlər naziri Mikael Forrest bildirdi ki, Fransanın koloniyaları ilə bağlı bu qurultayda biz çətin yoldan uzaqlaşmaq üçün həll yolu tapmalıyıq: "Biz plaftormalarımızı möhkəmləndirməliyik, müzakirələr aparmalıyıq. Siyasi fəaliyyətimizi elə qurmalıyıq ki, çağırışlara cavab tapa bilək. Bakı Təşəbbüs Qrupu bizə imkan yaradıb, bunu dəyərləndirməliyik. Bir araya gələrək müxtəlif gələcək platformalar barədə düşünməliyik. Yeni dünya düzənində öz yerimizi tapmalıyıq".

Yeni Kaledoniya Konqresinin üzvü İzabella Kaloi vətənində baş verən hadisələri diqqətə çatdırdı. O söylədi ki, mayın 13-dən bəri Yeni Kaledoniyada yaşananları hamı bilir: "Azərbaycana gəlib bu qurultayda iştirakımızın məqsədi Fransa dövlətinin bizə qarşı aktlarının qəbuledilməz olduğunu qətiyyətlə bildirməkdir. Biz bunu sərt şəkildə qınayırıq. Burada əsasən irqçi polislərdən söhbət gedir. Yazılan hesabatlar, insanların bu barədə dedikləri hələ də reallığa çevrilmir. Nəticə olaraq insanlarımıza qarşı düzgün hərəkət edilmir, hazırkı vəziyyətdə regionda qarşıdurmalar, yanğınlar baş verir. İllərdən bəri yaranmış problemlər gündən-günə daha geniş vüsət alır". O, qeyd etdi ki, bununla bağlı keçirilən tədbirlər, əlbəttə, məsələni kökündən həll etmir. "Demək istərdim ki, biz repressiyaya məruz qalmışıq. Bütün bunların yaranma səbəbi çox təəssüf ki, bizim səsvermə hüquqlarımızın ləğv edilməsidir. Bunu Fransa dövləti edib, hüquqlarımızın tapdalanması yolverilməz və qəbuledilməzdir. Biz bununla bağlı məlumat verdik, təkliflər hazırladıq və əksəriyyət də bu təklifə müsbət yanaşdı. Amma Fransa dövləti bizi dinləmək istəmədi. Ümumiyyətlə, səsvermə hüququnun dondurulması qərarı seçicilərə, mədəniyyətimizə və müqəddəratımıza qarşı olmaq deməkdir".

Yeni Kaledoniya parlamentinin üzvü Maria Saliqa bildirdi ki, Fransa dövlətinin hərəkətləri qəbuledilməzdir və beynəlxalq səviyyədə müzakirə olunmalıdır, Makron Fransası bütün demokratiya qaydalarından üz çevirib. Fransız Polineziyasında bu ölkənin atom, nüvə testlərini, həmin ərazilərdəki xalqların bundan uzun müddət əziyyət çəkdiklərini xatırladan Maria Saliqa diqqətə çatdırdı ki, Fransa terrorçu dövlətdir: "Azad etmək istəmədiyi ərazilərdə hökmranlığını sürdürür".

İki gün davam edən tədbirdə müzakirələr zamanı çıxış edən digər iştirakçılar bildirdilər ki, Fransa hakimiyyəti onların öz müqəddəratını təyinetmə hüququnu tanımalı və müstəqillik proseslərini dəstəkləməlidir. Onlar müstəmləkə siyasəti nəticəsində iqtisadi və mədəni zərərlərdən bəhs edərək yerli əhalinin hüquqlarının qorunmasının və inkişafının təmin olunmasının vacibliyini vurğuladılar.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Beynəlxalq Azadlıq Cəbhəsinin saytı istifadəyə verilib

**Bakıda yaradılan yeni Beynəlxalq Azadlıq Cəbhəsinin saytı istifadəyə verilib.**

AZƏRTAC xəbər verir ki, sayt Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə Bakıda keçirilən Birinci Qurultay çərçivəsində mətbuat konfransında təqdim edilib.




## Bəşəri idealların aliliyi naminə

### Bakı Təşəbbüs Qrupu insanlığa qarşı cinayətlərlə mübarizəyə mühüm dəstək verir

**"Azərbaycan hər zaman beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin aliliyinin təmin edilməsinin, dünyada bəşəri dəyərləri rəhbər tutaraq sülh, sabitlik və dialoq mühitinin bərqərar olunmasının tərəfdarıdır. 2023-cü ilin 6 iyul tarixində Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində yaradılan Bakı Təşəbbüs Qrupu da məhz bu ali niyyətlərin realizəsini hədəfləyib".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, Bakı Təşəbbüs Qrupu XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən, dünyanın müxtəlif bölgələrində yerləşən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə dəstək verir. Azərbaycan bu prosesdə daim aktiv rol oynamaqla bəşəri dəyərlər adına utanc olan neokolonializmin birdəfəlik kökünün kəsilməsini israrla arzu edir. Bakıda Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə təşkil olunan birinci qurultay da ilk növbədə Azərbaycanın bu istiqamətdə verdiyi töhfəsi hesab olunmalıdır. Sirr deyil ki, ən müasir kommunikasiya texnologiyalarının inkişafı, yeni münasibətlərin formalaşdığı bir dövrdə neokolonializm özünün yeni transformasiyası ilə hələ də davam etməkdə və dünyanın bir çox istiqamətlərində insan hüquq və azadlıqlarının realizəsi qarşısında əsas əngəl kimi çıxış etməkdədir. Yeni dövr neokolonializminin isə əsas və cinayətkar siması Fransadır. "Bu ölkənin nüvə dövləti olması, həmçinin BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi dünya idarəçiliyində faktiki yer alması fonunda bu günə qədər heç bir beynəlxalq subyekt Fransanın bu cinayətlərini ifşa etməyə təşəbbüs göstərməyib, rəsmi Paris isə cəzasızlıq mühitində özünün cinayətlərini davam etdirib. Lakin Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyə başlaması ilə Prezident İlham Əliyev bu məsələdə qətiyyət nümayiş etdirərək, xüsusən 2022-ci ilin noyabr ayının 21-də Əlcəzair Xalq Demokartik Respublikasının paytaxında Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında fəxri qonaq statusunda iştirakı və çıxışı zamanı Fransa neokolonializminin iç üzünü ilk dəfə qlobalmiqyaslı tribunadan bəyan edib, Fransanı cinayətkar əməllərini dayandırmağa çağırmışdı. Sonrakı dövrlərdə Prezident İlham Əliyev, əslində, bu niyyətlərlə yaradılmış, lakin həmin dövrə qədər daha çox ətalətdə və kölgədə qalmış təsisat olan Qoşulmama Hərəkatının imkan və güclərini səfərbər edərək neokolonializm və onun fəsadlarının aradan qaldırılması istiqamətində köklü mübarizəyə start verib", - deyə deputat əlavə edib.

O qeyd edib ki, Bakıda keçirilən konfrans da məhz bu proseslərin davamıdır. Azərbaycan, eləcə də prosesə qatılan digər subyektlər qəti və haqlı olaraq o qənaətdədirlər ki, bu kimi platformalar iştirakçı tərəflərə müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə vahid platforma yaradaraq Fransa müstəmləkəçiliyinə qalib gəlmək üçün nəticəyönümlü fəaliyyətin əlaqələndirilməsinin yolları barədə müzakirə aparmaq imkanı yaradacaq. Həmçinin koloniyaların təmsilçiləri belə tədbirlərdə öz müqəddəratını təyin etmək mübarizəsində ən səmərəli təcrübə və strategiyalar barədə fikirlərini bölüşmək və təcrübə mübadiləsi aparmaq imkanları əldə edirlər.

Müsahibimiz vurğulayıb ki, Bakı Təşəbbüs Qrupuna artan maraq və getdikcə güclənən inam sayəsində Prezident İlham Əliyev bu istiqamətdə fəaliyyətin konsepsiyasını kifayət qədər aydın formada müəyyənləşdirə və XXI əsrin əsas cinayətlərindən biri olan neokolonializmlə mübarizədə effektiv və səmərəli nəticələr ortaya qoyan model formalaşdıra bilib: "Bəlağətli bəyanatlara, insan haqları və demokratiya barədə dünyaya mühazirələr oxumaq "niyyət"lərinə baxmayaraq, reallıq göstərir ki, əslində, Qərbin heç bir böyük gücü faktiki olaraq neokolonializm ilə mübarizədə səmimi, ümumiyyətlə, istəkli deyil. Hətta Qərb cəmiyyətlərində müşahidə olunan siyasi əhvali-ruhiyyə də proseslərlə bağlı müsbət heç nə vəd etmir. Xüsusən Avropa İttifaqına və Fransa parlamentinə son seçkilər də göstərir ki, Fransa və müstəmləkəçiliklə bağlı məsələlərdə onun həmfikirləri neokolonializm ideologiyasından nəinki əl çəkmək niyyətində deyil, əksinə bu cəmiyyətlərdə nüfuz, güc və hakimiyyət qazanmaq üçün bu siyasətə üstünlük verən siyasi qüvvələr daha çox dəstək və rəğbət görməkdədir".

B.Məhərrəmov bildirib ki, Azərbaycan Prezidentinin başlatdığı və hazırda qlobal miqyasda dəstək görən Bakı Təşəbbüs Qrupunun formalaşdırdığı platformalar faktiki olaraq insanlıq adına cinayətlərlə mübarizədə yeganə platforma kimi çıxış edir. Əlbəttə ki, onillərdir müstəmləkə əsarətində zülüm çəkən, minimum hüquqlarından məhrum edilən Fransanın dənizaşırı əraziləri başda olmaqla, bütün neokoloniyalarındakı xalqlar da bu reallığın fərqindədir. Azərbaycanın təşəbbüsləri və israrlı səyləri ilə qət edilən bu yolu çox yüksək qiymətləndirirlər. Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin Baş katibinin Bakıda Azərbaycan Hökumətinə xüsusi təşəkkür etməsi və Azərbaycanı cəsarətli addımlarına görə təbrik etməsi də bu prosesdə artıq reallıqların aydın formada müşahidə edildiyini göstərir. Tədbirin yüksək səviyyədə təşkil olunması, bu tədbirdə demək olar ki, bütün müstəmləkələrdən siyasilərin iştirakı, fikir azadlığı və plüralizm şəraitində, azad formada bəyanatların səslənməsi, o cümlədən dünya mediasının bu prosesə artan marağı göstərir ki, Bakı qurultayı çox ciddi geosiyasi nəticələrə gətirib çıxaracaq. "Bu mənada, qurultayda beynəlxalq azadlıq cəbhəsinin yaranması mövzusuna xüsusi diqqətin yönəlməsi də təsadüfi hesab edilmir. Bu, əslində, gələcək fəaliyyətin yol xəritəsinin müəyyənləşməsi hesab olunmalıdır. Dünya bu prosesləri təhlil edərək hələ də müstəmləkə siyasətinə sadiq qalan, xüsusən Fransa kimi müstəmləkələrində cinayətlər törədən, siyasi təqiblər, siyasi terror aktlarına əsas davranış modeli kimi baxan beynəlxalq subyektlərə "dur!" deməyi bacarmalı, əks halda həmin güclər özləri neokolonializm siyasətinin tərəfdarları elan olunmalıdır. Bu mənada, Bakı Təşəbbüs Qrupu bəşəri idealların aliliyi naminə yaxşı imkan hesab olunmalıdır. Eyni zamanda bu günə qədər cəsarətsizlik göstərərək Fransa və digər neokolonialistlərin cinayətlərinə göz yuman dövlətlər üçün nəhayət ki, ədalətli mövqe göstərmələri üçün şansdır".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Daxili işlər nazirinin Quba rayonunda vətəndaş qəbulu və sıra baxışı olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 17-də və 18-də Quba Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Quba rayonundakı abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib. Sonra rayon polis şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından qəbula gələn 296 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib. 24 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 180 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "AzərEnerji" rəhbərliyi ilə Dünya Bankının regional direktoru müzakirələr aparıb




**"AzərEnerji" ASC-nin rəhbəri Baba Rzayevin Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Rolande Praysın başçılıq etdiyi nümayəndə heyəti ilə onlayın görüşü olub.**

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Azərbaycanda həyata keçiriləcək irihəcmli bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasının maliyyələşmə məsələləri barədə müzakirələr aparılıb. Görüşdə eyni zamanda yeni tikiləcək 500 kV-luq "Navai" yarımstansiyası, yeni çəkiləcək ötürmə xətləri, fəaliyyətlərin ekoloji, sosial təsirləri və başqa məsələlər də müzakirə mövzusu olub.

# Yaşıl dünya naminə...





**İyulun 18-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Milli Mətbuat Günü və "Əsrin müqaviləsi"nin 30 illiyi münasibətilə media nümayəndələri üçün SOCAR-ın Ekoloji parkına media-tur təşkil olunub.**

Media nümayəndələri media-tur çərçivəsində Ekoloji parkın ərazisi ilə tanış olub, güləkmə aksiyasında iştirak ediblər. Daha sonra SOCAR-ın "yaşıl gündəliyi"nə dair məlumatlandırma sessiyası təşkil olunub.

SOCAR-ın mətbuat katibi Orxan Hüseynov şirkətin müxtəlif istiqamətlər üzrə fəaliyyətindən, neft şirkətindən enerji şirkətinə transformasiya prosesindən, bu günədək şirkətin "yaşıl gündəlik" üzrə götürdüyü öhdəliklər, həyata keçirilən tədbirlər və layihələr haqqında məlumat verib. Mətbuat katibi həmçinin "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 çərçivəsində təşkil olunan və keçirilməsi planlaşdırılan tədbirlərdən də danışıb.

SOCAR-ın Ətraf mühit ilə bağlı məlumatların açıqlanması və əlaqələrin idarə edilməsi departamentinin rəisi Mustafa Qurbanlı görüşdə "SOCAR-ın dekarbonizasiya strategiyası və gələcək perspektivlər" mövzusunda təqdimatla çıxış edərək COP28-də SOCAR-ın elan etdiyi orta və uzunmüddətli perspektivdə dekarbonizasiya hədəfləri haqqında ətraflı bəhs edib. Şirkətin dekarbonizasiya proqramının emissiya göstəricilərinin tədqiqi, qiymətləndirilməsi və emissiyaların azaldılması ilə hədəflərin ətraflı araşdırılmasına əsaslandığını bildirən M.Qurbanlı 2050-ci ildə bütün əməliyyatlarda "Xalis sıfır"a nailolmanın şirkətin əsas hədəflərindən olduğunu diqqətə çatdırıb. Departament rəisi alternativ və bərpaolunan enerji mənbələrindən istifadə edilməsi üzrə dövlət siyasətinə dəstək olaraq bərpaolunan enerji mənbələrinin genişləndirilməsi strategiyasının icrası ilə əlaqədar SOCAR tərəfindən həyata keçirilən layihələrdən də bəhs edib.

SOCAR neft-qaz şirkətindən enerji şirkətinə çevrilməkdədir. Beynəlxalq enerji şirkətinə çevrilmək yolunda irəliləməklə ətraf mühitin mühafizəsi və təmizlənməsi SOCAR-ın prioritet istiqamətlərindəndir. Bu çərçivədə və "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Bakı buxtasının təmizlənməsinin həyata keçirildiyi barədə məlumat verən "Neftqaztikinti" trestinin müdiri Qağaməli Seyfullayev Bakı buxtası və sahil zonasında xüsusi texnologiya və avadanlıqlar vasitəsilə batmış və yarımbatmış vəziyyətdə olan iri qabaritli tullantıların müəyyənləşdirilməsi, çıxarılması, daşınması və utilizasiyası üzrə görülən işlərdən bəhs edib. Q.Seyfullayev həyata keçirilən layihənin ətraf mühitin qorunması baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, SOCAR-ın gələcəkdə də dövlət tərəfindən həyata keçiriləcək bu cür nəhəng layihələrin reallaşmasına hər zaman öz dəstəyini və töhfəsini verəcəyini bildirib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Hərbi qulluqçular snayper tüfənglərindən praktiki atış çalışmaları yerinə yetiriblər

**Quru Qoşunlarının 2024-cü il üzrə hazırlıq planına uyğun olaraq komando hərbi hissələrinin snayper bölükləri və snayper ixtisaslı hərbi qulluqçuları ilə ixtisas toplanışı keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, toplanış çərçivəsində praktiki vərdişlərin və atəşaçma bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə hərbi qulluqçular snayper tüfənglərindən müxtəlif epizodlar üzrə praktiki atış çalışmaları yerinə yetiriblər.

Atəş mövqeyinin tutulması və silahın döyüş vəziyyətinə gətirilməsi, şərti düşmən hədəflərinin aşkarlanaraq məhv edilməsi üzrə tapşırıqlar yüksək peşəkarlıqla icra olunub.



# Naxçıvanda seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr olunan seminar keçirilib







**Naxçıvan "ASAN xidmət" mərkəzində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının təşkilatçılığı ilə seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr olunan seminar keçirilib.**

AZƏRTAC xəbər verir ki, seminarda Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü Qabil Orucov seçki hüququnun pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırılması prinsiplərindən danışıb.

Bildirilib ki, seminarlar seçkilərdə vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması, dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılması, bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənib.

MSK-nın digər üzvü Tofiq Həsənov seçki hüququn pozulmasını iddia edən subyektlərin müraciətləri zamanı qarşıya çıxan məsələlər, şikayət və müraciətlərin xarakteri barədə ətraflı izah verib.

Seminar çərçivəsində bütün iştirakçılara seçki hüququ ilə bağlı müraciətlərin araşdırılması, habelə müvafiq rəy və qərar layihələrinin hazırlanması prosedurlarını aydın, müfəssəl əks etdirən "Ekspert qrupunun üzvləri üçün yaddaş" kitabçası da təqdim olunub. Seminarda Naxçıvandakı 6 seçki dairəsi üzrə dairə seçki komissiyalarının hər birindən 3 ekspert olmaqla, ümumilikdə 18 nəfər iştirak edib.

Tədbirin sonunda fikir mübadiləsi və müzakirələr aparılıb, həmçinin iştirakçıları maraqlandıran məqamlara aydınlıq gətirilib.

Qeyd edək ki, Naxçıvandakı seminar MSK-nın qarşıdan gələn Milli Məclisə seçkilərlə əlaqədar genişmiqyaslı maarifləndirmə proqramı çərçivəsində reallaşdırılan və seçki hüququ üzrə müraciətlərə baxılmasına həsr olunan layihəsinin sonuncu tədbiri idi.

# Andrey Yatskin Azərbaycanda keçiriləcək parlament seçkilərində MDB PA müşahidə missiyasının koordinatoru təyin edilib





**Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyası (MDB PA) Şurasının sədri, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının spikeri Valentina Matviyenkonun Sərəncamı ilə Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin Azərbaycanda keçiriləcək parlament seçkilərində MDB PA-nın beynəlxalq müşahidəçilər qrupunun koordinatoru təyin edilib.**

AZƏRTAC Müstəqil Dövlətlər Birliyinə üzv Dövlətlərin Parlamentlərarası Assambleyasının Mətbuat xidmətinə istinadla xəbər verir ki, hazırda MDB PA-nın üzvü olan dövlətlərin parlamentlərinin nümayəndələrindən, Assambleya rəsmilərindən və MDB PA-nın Demokratiyanın İnkişafının Monitorinqi Beynəlxalq İnstitutunun ekspertlərindən ibarət müşahidəçilər qrupu formalaşdırılır.

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın dəvəti ilə MDB PA-dan olan beynəlxalq müşahidəçilər seçkilərin monitorinqində iştirak edəcəklər.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev VI çağırış Milli Məclisin buraxılması və ölkədə növbədənkənar parlament seçkilərinin 2024-cü il sentyabrın 1-nə təyin edilməsi haqqında Sərəncam imzalayıb.

MDB Parlamentlərarası Assambleyası Müstəqil Dövlətlər Birliyinin dövlətlərarası orqanı və 1992-ci ildən regionda parlamentarilər arasında qarşılıqlı fəaliyyət üçün əsas platformadır.

Assambleya Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan və Özbəkistanın parlament nümayəndə heyətlərindən ibarətdir. 1994-cü ildən bəri MDB PA-dan olan müşahidəçilər Birlik ərazisində və onun hüdudlarından kənarda 150-dən çox seçki və referendumu izləyiblər. Seçki kampaniyalarının monitorinqi üzrə fəaliyyət MDB PA çərçivəsində fəaliyyət göstərən Demokratiyanın İnkişafının Monitorinqi Beynəlxalq İnstitutu tərəfindən əlaqələndirilir.

MDB Parlamentlərarası Assambleyasının qərargahı Sankt-Peterburqdakı Tavrida sarayında yerləşir. MDB PA Şurasının sədri Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkodur.

# Azərbaycanın xarici siyasətinin uğurları



## Strateji əhəmiyyətə malik Azərbaycan-Böyük Britaniya əlaqələri

**Azərbaycanın uğurlu çoxşaxəli xarici siyasətində əsas istiqamətlərdən birini də Böyük Britaniya ilə münasibətlər tutur. Böyük Britaniya-Azərbaycan arasında əlaqələr tarixi və strateji əhəmiyyətə malikdir. İki ölkənin münasibətlərinin müasir tarixi öz başlanğıcını 90-cı illərin əvvəllərindən götürür. Böyük Britaniya Azərbaycanın müstəqilliyinin bərpasını tanıyan ilk Qərb ölkələrindən biridir. Birləşmiş Krallıq 1991-ci il dekabrın 31-də Azərbaycanın müstəqilliyini tanıyıb. Ölkələrimiz arasında diplomatik münasibətlər isə 1992-ci il martın 11-də qurulub. Ötən müddətdə iki ölkə arasında əlaqələrin genişləndirilməsi baxımından yüksək tarixi nailiyyətlər əldə olunub və hazırda Azərbaycan-Böyük Britaniya münasibətləri inkişafının ən yüksək səviyyəsinə çatıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak etmək üçün İngiltərəyə işgüzar səfəri də ölkələrimiz arasında əməkdaşlıq imkanlarının genişləndirilməsi və əlaqələrimizin daha da dərinləşdirilməsi baxımından mühüm töhfə olacaq. AZƏRTAC Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlərin tarixinə və inkişaf yoluna qısa nəzər salır.**

### Ulu Öndər Heydər Əliyevin 1994-cü ildə Böyük Britaniyaya səfəri uzunmüddətli və faydalı əməkdaşlığın əsasını qoydu

İkitərəfli əlaqələrin inkişafının əsasında Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi təcrübəsinin, regionda cərəyan edən prosesləri öncədən proqnozlaşdırmaq və dəqiq qiymətləndirmək bacarığının mühüm rolu var. Ulu Öndərin ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra beynəlxalq əməkdaşlığın inkişafı istiqamətində atdığı ilk addımlardan biri də Böyük Britaniya ilə münasibətlərin inkişaf etdirilməsi oldu. Ümummilli Lider Heydər Əliyevin 1994-cü və 1998-ci illərdə Böyük Britaniyaya səfərləri ölkələrimiz arasında qurulacaq müxtəlif istiqamətli əməkdaşlığın əsas sütununu təşkil edib. Xüsusi vurğulamaq lazımdır ki, Ulu Öndərin 1994-cü ildəki səfəri, Birləşmiş Krallığın Baş naziri Con Meycor ilə keçirdiyi görüş və imzalanan sənədlər ölkələrimiz arasında uzunmüddətli və qarşılıqlı faydalı əməkdaşlığın əsasını qoydu. Həmin vaxtdan başlayaraq, iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığ genişlənib, möhkəm siyasi dialoq qurulub, iqtisadi sahədə önəmli nəticələr əldə olunub. Bununla ornalı olaraq, humanitar sahədə də ornalıs mübadilələr həyata keçirilib və əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Məhz bunun göstəricisidir ki, bu gün Azərbaycan Cənubi Qafqaz regionunda və daha geniş Xəzər dənizi hövzəsində Böyük Britaniyanın etibarlı tərəfdaşıdır. Bu tərəfdaşlıq yüksək səviyyəli qarşılıqlı səfərlərdə də özünü aydın şəkildə göstərir. Azərbaycan Respublikasının dövlət başçıları Böyük Britaniyaya ümumilikdə 4 rəsmi və 7 işgüzar səfər ediblər. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ilin aprelində andiçmə mərasimindən sonra Türkiyəyə səfərinin növbəti günü Böyük Britaniyanın Baş naziri xanım Tereza Meyin dəvəti ilə Londona səfər edib.

Böyük Britaniya da bir çox sahələrdə, xüsusən enerji sektorunda uzunmüddətli etibarlı əməkdaşlığın inkişaf etdirilməsinə böyük önəm verir. Britaniyanın sabiq Baş naziri Rişi Sunak bu il martın 14-də XI Qlobal Bakı Forumu ilə bağlı dövlətimizin başçısına ünvanladığı məktubda qeyd edib:

"Azərbaycan bütün dünyada dəyər verilən məhsulların daşındığı ticarət marşrutlarının üzərində yerləşir. Böyük Britaniya Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyaya, Türkiyə və Qara dəniz vasitəsilə isə Avropaya aparan yeni bağlantıların açılmasını dəstəkləməkdə davam edəcəkdir... Böyük Britaniya və Azərbaycan arasında olan əlaqələr qarşılıqlı firavanlıq və təhlükəsizlik maraqları naminə dərinləşməkdə və genişlənməkdə davam edir. 2024-cü ilin sonuna doğru COP tədbirinin Bakıda uğurla keçirilməsinin dəstəklənmək üçün Böyük Britaniya yanınızda olacaq."

Böyük Britaniyanın Ermənistan-Azərbaycan münaqişəsinə dair rəsmi mövqeyi də hər zaman beynəlxalq hüquq prinsiplərinə əsaslanıb. Tərəfdaş ölkə hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyıb. Qırx dörd günlük Vətən müharibəsi dövründə də Böyük Britaniya obyektiv münasibət sərgiləyib.

Qeyd edək ki, ölkələrimiz arasında siyasi əlaqələr müxtəlif formatlarda uğurla davam etdirilir. Belə ki, 2016-cı ildən etibarən Xarici İşlər nazirlikləri arasında strateji dialoqun iclasları keçirilir. Həmçinin 1997-ci ildə Milli Məclisdə Böyük Britaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu, Birləşmiş Krallıq parlamentində isə 2014-cü ildə Azərbaycan üzrə parlament qrupu (All Party Parliamentary Group on Azerbaijan) təsis edilib. Bu qrupların birgə fəaliyyəti nəticəsində iki ölkənin parlament üzvləri arasında işçi əlaqələr yaradılıb, qarşılıqlı səfərlər həyata keçirilib.

Böyük Britaniyanın yüksəksəviyyəli nümayəndə heyətləri də dəfələrlə Azərbaycanda səfərdə olublar. Bu səfərlər Azərbaycan ilə Birləşmiş Krallıq arasında ikitərəfli münasibətlərə təkan verməklə yanaşı, əlaqələrimizə yeni impuls qazandırır. Bu səfərlər arasında Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Mortonun 2021-ci ilin fevralında ölkəmizə səfərini xüsusi qeyd etmək olar. Dövlətimizin başçısının fevralın 9-da xanım naziri qəbul edərkən dediyi sözlər ölkələrimiz arasında münasibətlərin strateji xarakterindən xəbər verir: "Bu (səfər - red.) ornalı ölkələrimiz arasında güclü tərəfdaşlıq münasibətlərini və əlbəttə ki, əməkdaşlığımızı davam etdirmək üçün gələcək planlarımızı əks etdirir. Çox yaxşı siyasi təmaslarımız, çox fəal siyasi dialoqumuz var. Sizin Azərbaycana səfəriniz bunu ornalı nümayiş etdirir".

### Siyasi münasibətlərin yüksək səviyyədə olması uzunmüddətli uğurlu iqtisadi əməkdaşlığın əsasını təşkil edir

İki ölkə arasında siyasi münasibətlərimizin yüksək səviyyədə olması iqtisadi münasibətlərə də müsbət təsirini göstərib. Böyük Britaniya Azərbaycan iqtisadiyyatına ən çox investisiya yatıran ölkədir. Bu ölkə 2023-cü ilin sonunadək Azərbaycan iqtisadiyyatına ümumilikdə 83 milyard dollar sərmayə qoyub. 2023-cü ildə Azərbaycan ilə Böyük Britaniya arasında ticarət dövriyyəsinin həcmi 790 milyon dollardan çox olub. Cari ilin yanvar-may aylarında isə ticarət dövriyyəsinin həcmi 140 milyon ABŞ dollarından artıq olub ki, bu da ötən ilin 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 10 faizdən çoxdur.

İqtisadi əməkdaşlığımızın uzun tarixi köklərə var. Hələ XIX əsrin sonu-XX əsrin ilk illərində də ingilis şirkətləri Bakının neft müəssisələrinə böyük həcmdə ornal yatırıb. 1904-cü ildə Böyük Britaniya ağ neftə tələbatının 47 faizini Bakı nefti hesabına ödəyib. 2016-cı ilin aprelində Baroness Emma Nikolson Baş nazirin Azərbaycan, Türkmənistan və İraq üzrə ticarət elçisi təyin edilib. Həmin vaxtdan E.Nikolson ölkəmizə bir sıra səfərlər edib, həmçinin iqtisadi sahədə əməkdaşlığın genişlənməsi məqsədilə ölkəmizin müxtəlif dövlət qurumlarının rəhbər və mütəxəssislərinin Britaniyaya səfərlərini təşkil edib. 2021-ci ilin mayında təsis edilən Britaniya-Azərbaycan Ticarət və Sənaye Palatası 2022-ci ildə fəaliyyətə başlayıb.

Ölkələrimizin iqtisadi əlaqələrində neft-qaz sahəsində əməkdaşlıq mühüm yer tutur. BP Azərbaycanın neft-qaz sektorunda çalışan əsas Britaniya şirkətidir. Şirkət Azərbaycanın neft-qaz sektorunun inkişafına və modernləşdirilməsinə mühüm töhfələr verməklə enerji sektorunda ölkəmizin əsas tərəfdaşı qismində çıxış edir. BP "Azəri-Çıraq-Günəşli", "Şahdəniz" layihələrinin operatoru, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum təbii qaz kəmərlərinin, "Cənub qaz dəhlizi"nin komponentləri olan Cənubi Qafqaz boru kəmərinin, TANAP, TAP kimi irimiqyaslı layihələrin əsas sərmayədarlarından biridir. BP Azərbaycanda ən böyük xarici investordur. 1994-cü ildə imzalanan sentyabrında "Əsrin müqaviləsi" imzalandığı vaxtdan etibarən SOCAR və BP arasında enerji sahəsində uğurlu əməkdaşlıq qurulub və 2017-ci il sentyabrın 14-də SOCAR və BP arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının 2050-ci ilədək işlənilməsini nəzərdə tutan yeni saziş imzalanıb. Sazişin imzalanması Azərbaycan-Britaniya əməkdaşlığında növbəti tarixi hadisədir. Bu saziş ölkələrimiz arasındakı əlaqələrin möhkəmliyinin, qarşılıqlı etimadın və faydalı investisiya layihələrinin uğurlu təzahürüdür.

Bundan başqa, 2018-ci il aprelin 26-da Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya işgüzar səfəri çərçivəsində BP ilə SOCAR arasında Xəzər dənizinin Azərbaycan sektorunda Şimali Abşeron hövzəsindəki D230 blokunun birgə kəşfiyyatı və işlənilməsi üçün hasilatın pay bölgüsü haqqında yeni saziş imzalanıb.

İki ölkə arasında şəhərsalma, ərazi planlaşdırılması və memarlıq sahəsində əməkdaşlıq inkişaf etməkdədir. Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə qarşı tərəfin müvafiq qurumu arasında "ağıllı binalar, ağıllı şəhər və ağıllı kənd" və "şəhər inkişafının planlaşdırılması, şəhərsalma və tikinti layihələrinin tətbiqi" sahələrində əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulub.

Azərbaycanda 500-dən çox Birləşmiş Krallıq investisiyalı kommersiya qurumu fəaliyyət göstərir. Bu rəqəm iqtisadi tərəfdaşlığımızın şaxələndirilməsinin mühüm göstəricisidir. Mühüm istiqamətlərdən biri də odur ki, Britaniya şirkətləri işğaldan azad olunmuş ərazilərin bərpası, o cümlədən minalardan təmizlənməsi işində iştirak üçün maraq göstərir. Britaniyanın "Chapman Taylor LLP" şirkəti ilə Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsi arasında Şuşa və Cəbrayıl şəhərlərinin baş planlarının hazırlanması dair müqavilələr imzalanıb. Dövlətimizin başçısı Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin Gəncədə törətdiyi qanlı faciələr nəticəsində həyatını itirmiş sakinlərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Gəncə Memorial Kompleksinin yaradılması barədə tapşırıq verib. Həmin kompleksin layihəsi "Chapman Taylor" şirkəti tərəfindən hazırlanıb.

Ölkələrimiz arasında ornalist enerji sahəsində də uğurlu əməkdaşlıq qurulub. 2018-ci ildə Energetika Nazirliyi ilə BP şirkəti arasında "Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. 2021-ci il mayın 20-də "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Beynəlxalq Ticarət Departamenti arasında təmiz enerjiyə keçid sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Sənəddə iki ölkə arasında enerji məsələlərində, o cümlədən bərpaolunan enerji, enerji səmərəliliyi, aşağıkarbonlu texnologiyalar, liberal enerji bazarına keçid və elektrik şəbəkələri kimi sahələrdə əməkdaşlıq və iqlim dəyişikliyi probleminin həlli imkanlarının araşdırılması nəzərdə tutulur.

Qeyd edək ki, bərpaolunan enerji, aşağıkarbonlu texnologiyalar, ornalı enerjisindən istifadə üzrə BB təcrübəsinin öyrənilməsi, eləcə də bu sahədə kadr potensialının gücləndirilməsi məqsədilə Energetika Nazirliyi və Böyük Britaniyanın ölkəmizdəki səfirliyi arasında əməkdaşlıq çərçivəsində çoxsaylı təlim və seminarlar keçirilməkdədir.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar sahələrində də səmərəli əməkdaşlıq həyata keçirilir. İki ölkə arasında avtomobil nəqliyyatı ilə az həcmdə beynəlxalq yük daşımaları həyata keçirilir. Azərbaycanda Britaniya istehsalı olan 29 adda dərman dövlət qeydiyyatından keçib.

### Təhsil, mədəni mübadilə və xalqlar arasındakı təmaslar ikitərəfli əlaqələrdə mühüm yer tutur

Ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin digər mühüm istiqamətini təhsil, mədəni mübadilə və xalqlar arasındakı təmaslar təşkil edir. 1994-cü il fevralın 23-də "Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"in imzalanması ilə ölkələrimiz arasında təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığın təməli qoyulub. Britaniya tərəfindən bu sahədə əməkdaşlıq Britaniya Şurası (British Council) vasitəsilə həyata keçirilir. Ötən dövrdə minlərlə azərbaycanlı tələbə, müəllim, alim və tədqiqatçı Britaniyada təhsil alıb və ya müxtəlif layihələri həyata keçiriblər. Ümumilikdə, Azərbaycanın Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyi ilə Britaniya Şurası arasında əməkdaşlıq mövcuddur.

Hər il yüzlərlə azərbaycanlı gənc Böyük Britaniya universitetlərində təhsil almağa yollanır. Birləşmiş Krallıq azərbaycanlıların təhsil almaq üçün ən çox üz tutduğu üçüncü ölkədir.

2013-cü ildən etibarən Oksford Universitetində Nizami Gəncəvi adına Qafqazşünaslıq Elmi Mərkəzi fəaliyyət göstərir. Universitetin kitabxanalarından biri Nizami Gəncəvinin adını daşıyır. Hər il Bakıda və Londonda çoxlu sayda mədəni tədbirlər keçirilir.

Azərbaycanı və Qafqazı tədqiq edən Böyük Britaniya Fondunun dəstəyi ilə Azərbaycanın, Qafqazın və Orta Asiyanın tarixi, dilləri və mədəniyyətlərinin öyrənilməsi üçün 2018-ci il mayın 23-də Oksfordda Mərkəz açılıb. Fondu Kanslerin Xeyriyyəçilər Komitəsində Fondun Qəyyumlar Şurasının sədri professor Nərgiz Paşayeva təmsil edir.

Azərbaycan və Cənubi Qafqaz regionunda ilk layihə olan ingilis dilində idman jurnalistikası üzrə magistr proqramı icra edilir. Britaniyanın Hallam Universiteti və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən proqrama tanınmış britaniyalı ornalist Den Mayson (Dan Mason) rəhbərlik edir. Proqram idmanın müxtəlif sahələri üçün ən müasir təhsil proqramlarının tətbiqi yolu ilə jurnalistlərin hazırlanmasını ehtiva edir.

2019-ci il mayın 22-də Böyük Britaniya Parlamentinin Lordlar Palatasının deputatı, Leyboristlər Partiyasından Azərbaycanın dostları qrupunun sədri Lord Devid Evansa məxsus "Senate Publishing" nəşriyyat evinin SOCAR-la əməkdaşlıq çərçivəsində nəşr etdirdiyi "Azərbaycan və Böyük Britaniya - 100 illik tərəfdaşlıq" adlı kitabın təqdimat mərasimi keçirilib.

2023-cü il mayın 26-da Böyük Britaniyanın tarixi Viktoriya və Albert Muzeyinin "Rafael" qalereyasında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Azərbaycan Respublikası Atçılıq Federasiyası Londonda ənənəvi olaraq keçirilən "Royal Windsor Horse Show" atçılıq şousunda fəal çıxış edir. 2022-ci il mayın 12-15-də Londonda keçirilmiş "Royal Windsor Horse Show" atçılıq şousunda Federasiyanın təşkilatçılığı ilə Dövlət Sərhəd Xidmətinin "Süvarilər" atlılar dəstəsi "Land of Fire - Azerbaijan" adlı xüsusi proqramla çıxış ediblər. Tədbir çərçivəsində Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev Kraliça II Elizabet ilə görüşüb və Azərbaycan Prezidenti İlham Əliyevin hədiyyəsi olan "Şöhrət" adlı Qarabağ atını Kraliçaya təqdim edib. Həmçinin Azərbaycanın tanınmış heykəltaraşı Faiq Hacıyevin yaratdığı "Alxan" adlı Qarabağ və "Qalxan" adlı Dilbaz atlarının heykəlləri də Kraliçaya hədiyyə olunub.

Beləliklə, Prezident İlham Əliyevin Böyük Britaniyaya işgüzar səfəri Azərbaycanın ikitərəfli əməkdaşlığın inkişafına böyük diqqət yetirməsinin göstəricisidir.

## *Özbək ekspert:* "Özbəkistan Azərbaycanın "Şanxay ailəsi"nə qoşulmasını tam dəstəkləyir "

**Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya ölkələri, o cümlədən Özbəkistanla əlaqələrin inkişafı mühüm yer tutur. Son illər Mərkəzi Asiyanın dinamik inkişaf edən ən böyük dövlətlərindən biri olan Özbəkistanla Azərbaycan arasında əlaqələr durmadan genişlənir. Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Türk Dövlətləri Təşkilatı çərçivəsində nazirlər səviyyəsində Türk Ətraf Mühit Şurasının yaradılmasını təklif edib. Bu kontekstdə bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un bütün TDT ölkələri üçün əlamətdar tarixi hadisəyə çevriləcəyi vurğulanıb. İkitərəfli əməkdaşlığın cari sahələrinə dair özbək beynəlxalq əlaqələr üzrə ekspert Oleq Qolişnikov AZƏRTAC-ın suallarını cavablandırıb.**

*- Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Bakıya son səfərinin nəticələrini necə qiymətləndirirsiniz və bu, ikitərəfli iqtisadi əlaqələrin inkişafına necə təsir edəcək?*

- Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin bu yaxınlarda Şuşada keçirilən TDT-nin Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirakı təşkilati tərəfdaşlarla regional və beynəlxalq gündəliyin aktual məsələləri üzrə müzakirə aparmaq üçün daha bir fürsətdir. Bundan əlavə, Özbəkistan üçün TDT-də iştirak, ilk növbədə, iqtisadi-ticari əməkdaşlıq məsələlərinin ön plana çıxdığı praqmatik xarakter daşıyır. Bunu Özbəkistan liderinin səsləndirdiyi bir sıra təşəbbüslər sübut edir. Belə ki, sammitdə Prezident Şavkat Mirziyoyev digər məsələlərlə yanaşı, Dəmir Yolu İdarələri Şurasının yaradılmasını, habelə beynəlxalq marşrutların imkanlarından daha səmərəli istifadə etmək üçün Tədbirlər Kompleksinin işlənib hazırlanmasını, avtomobil daşımalarının tam rəqəmsallaşdırılmasını və "yaşıl dəhliz"in yaradılmasını təklif edib. Bu təşəbbüslərin həyata keçirilməsi TDT iştirakçıları arasında, o cümlədən Özbəkistan və Azərbaycan arasında nəqliyyat, logistika və ticarət sahələrində qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə imkan verəcək.

*- Türk Dövlətləri Təşkilatının Şuşada keçirilən qeyri-rəsmi Zirvə toplantısında Qarabağ Bəyannaməsi imzalanıb. Bu sənəd Türk Dövlətləri Təşkilatının fəaliyyətinə necə töhfə verəcək?*

- İmzalanmış sənədə əsasən, tərəflər əməkdaşlığın prioritet istiqamətləri üzrə qarşılıqlı fəaliyyətin, o cümlədən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı, nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması və rəqəmsallaşdırılması, enerji sahəsində, ilk növbədə, bərpaolunan enerji sahəsində fəaliyyətin gücləndirilməsini davam etdirmək barədə razılığa gəliblər. Onu da vurğulamaq lazımdır ki, TDT iştirakçıları Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinə dair sazişin imzalanmasını alqışlayıblar. Onun həyata keçirilməsi bütün TDT məkanında ticarət, iqtisadi, maliyyə, nəqliyyat və logistika sektorlarının inkişafına müsbət təsir göstərəcək. Bu layihə Daşkənd üçün, o cümlədən Özbəkistanın iqtisadi əlaqələrinin şaxələndirilməsi baxımından çox vacibdir. Ümumiyyətlə, Qarabağ Bəyannaməsinin əsas müddəalarının həyata keçirilməsi TDT iştirakçıları arasında münasibətləri yeni səviyyəyə qaldıra, həmçinin TDT-nın beynəlxalq aləmdə nüfuzunu gücləndirə bilər.

*- Təşkilat bu gün hansı problemlərlə üzləşir?*



- Birincisi, bu, razılaşmaların praktikada həyata keçirilməsidir. Mənim fikrimcə, bir çox çoxtərəfli strukturlar üçün əsas problemdir və TDT bu mənada istisna deyil. Təşkilatın üzvləri konseptual səviyyədə razılaşmaya malik olduqda belə, icra səviyyəsində razılaşmaların icrası çox vaxt müəyyən çətinliklərlə, o cümlədən tənzimləyici, texniki, texnoloji, maliyyə və bürokratik çətinliklərlə üzləşir. Bu çətinlikləri, məncə, TDT ölkələrinin rəhbərliyinin siyasi iradəsi, eləcə də birgə layihə və təşəbbüslərin həyata keçirilməsində iştirak edən məsul nazirlik və idarələrin sistemli və əlaqələndirilmiş işi ilə aradan qaldırmaq olar. Burada nəzarət və monitorinq mexanizmlərinin yaradılması da vacibdir.

*- Azərbaycan və Özbəkistan TDT-də iştirakdan hansı perspektivlər əldə edir?*

- TDT çərçivəsində iqtisadi-ticari gündəm Özbəkistan üçün böyük əhəmiyyət kəsb edir. Özbəkistan TDT iştirakçıları, o cümlədən Azərbaycanla qarşılıqlı faydalı əsasda layihələr həyata keçirməkdə maraqlıdır. TDT bir təşkilat olaraq ciddi potensiala malikdir və bunun effektiv həyata keçirilməsi təşkilatın iştirakçılarına, o cümlədən Özbəkistan və Azərbaycana əlavə faydalar gətirəcək. TDT çərçivəsində irəli sürülən təşəbbüs və layihələrin praktiki şəkildə həyata keçirilməsindən çox şey asılı olacaq.

*- Prezident Şavkat Mirziyoyev qeyd etdi ki, TDT-nin nəqliyyat, qarşılıqlı əlaqə və iqlim fəaliyyəti vasitəsilə davamlı gələcəyin qurulması mövzusunda iclasının keçirilməsi böyük əhəmiyyət kəsb edir. Azərbaycanla Özbəkistan arasında bu istiqamətdə əməkdaşlığı necə qiymətləndirirsiniz?*

- Özbəkistan TDT məkanında qarşılıqlı əlaqənin, o cümlədən nəqliyyat, logistika və iqtisadi-ticari sahələr üzrə genişləndirilmiş əməkdaşlığın gücləndirilməsinin tərəfdarıdır. Bu baxımdan Özbəkistan və Azərbaycanın oxşar maraqları var. Məsələn, rəsmi Daşkənd və Bakının beynəlxalq marşrutların, o cümlədən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə işində müsbət dinamikanı qeyd etmək olar. Hər iki ölkənin əməkdaşlıq gündəliyində iqlim məsələləri də var. Axı iqlim dəyişikliyi dövlətlərin həyatının bir çox sahələrinə təsir edir və təsir edəcək. İqlim dəyişikliyi və su problemləri arasında sıx əlaqəni nəzərə alsaq, Mərkəzi Asiya və Yaxın Şərq ən həssas bölgələr kimi görünür. Bu baxımdan, Daşkənd həmin məsələlərdə riskləri azaltmaq üçün istənilən çoxtərəfli formatlara təşəbbüs göstərir və dəstəkləyir. Maraqlıdır ki, Şuşa sammitində Prezident Şavkat Mirziyoyev qərargahı Ekoloji fəlakətdən ən çox əziyyət çəkən bölgə, Aral dənizi regionunun böyük şəhəri olan Nukusda olmaqla Türk Ətraf Mühit Şurasının yaradılmasını təklif edib. Özbəkistan və Azərbaycan da daxil olmaqla, TDT çərçivəsində əməkdaşlıq beynəlxalq ictimaiyyətin iqlim gündəminə dair səylərinin artırılmasına əlavə töhfə verə bilər.

*- Ölkələrimizin ŞƏT çərçivəsində əməkdaşlığını necə qiymətləndirirsiniz?*

- ŞƏT çoxtərəfli strukturdur. Bundan əlavə, Özbəkistan və Azərbaycanın bu təşkilatda müxtəlif iştirak statusları var. Özbəkistan ŞƏT-in tamhüquqlu üzvüdür və Azərbaycan hazırda bu təşkilatın dialoq tərəfdaşıdır. Hər iki ölkənin çoxlu oxşar maraqları var, bir sıra aktual məsələlər, o cümlədən ŞƏT-in səlahiyyətlərinə aid olan məsələlər üzrə onların mövqeləri yaxındır. Bu baxımdan Özbəkistan Azərbaycanın ŞƏT-in işində daha fəal iştirakında maraqlıdır. Məsələn, Azərbaycan rəhbərinin Özbəkistan rəhbərliyinin dəvəti ilə Səmərqənddə keçirilən ŞƏT sammitində (2022 il) iştirakı buna sübutdur. Bu yaxınlarda Astanada keçirilən ŞƏT sammitində Azərbaycan Prezidenti də iştirak edib. Azərbaycanın "Şanxay ailəsi"nə təşkilatın tamhüquqlu üzvü kimi qoşulması ilə Daşkənd, Bakı və təşkilatın digər üzvləri arasında ŞƏT-də daha sistemli əməkdaşlıq yarana bilər.

*- "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyət Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında mühüm əməkdaşlıq sahəsidir. ŞƏT Azərbaycanın nəqliyyat sektorunun inkişafına necə töhfə verə bilər?*

- Bu günə qədər ŞƏT iştirakçıları arasında nəqliyyat və ümumilikdə ticarət əlaqələri sahəsində praktiki əməkdaşlıq təşkilatın güclü tərəfi deyil. Bəzi ŞƏT üzvləri də bunu açıq şəkildə bəyan ediblər. Məncə bu, ilk növbədə, təşkilat iştirakçılarının müxtəlif maraqları ilə bağlıdır. Bundan əlavə, ŞƏT daxilində, xüsusən də təşkilatın əsas oyunçuları arasında nüfuz uğrunda rəqabət elementləri qalır. Eyni zamanda ŞƏT regional təhlükəsizliyin möhkəmləndirilməsi və iqtisadi əməkdaşlığın, o cümlədən "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyətin inkişafı məsələlərinin müzakirəsi üçün platforma kimi mühüm rol oynamaqda davam edir. Dünyanın müxtəlif regionlarında artan geosiyasi gərginlik və bunun nəticəsində tədarük zəncirlərinin pozulması fonunda bu məsələlər xüsusi əhəmiyyət kəsb edir. ŞƏT platforma kimi kiçik dövlətlər üçün də öz mövqelərini bildirmək və müəyyən məsələlərlə bağlı digər oyunçuların mövqelərini aydınlaşdırmaq üçün vacibdir. Bu baxımdan, Azərbaycan üçün ŞƏT təşkilatın maraqlı iştirakçıları arasında nəqliyyat dəhlizlərinin, o cümlədən Orta dəhlizin inkişafı ilə bağlı müzakirələr üçün əlavə platforma rolunu oynaya bilər. Terrorizm, ekstremizm və separatizmlə mübarizə sahəsində ŞƏT təcrübəsi Azərbaycan üçün də faydalıdır. Bu, təşkilatın iştirakçıları arasında praktiki əməkdaşlığın, ilk növbədə, Daşkənddə yerləşən ŞƏT Regional Antiterror Strukturu vasitəsilə ən səmərəli şəkildə qurulan prioritet sahədir. Bundan əlavə, ŞƏT çərçivəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə daha sistemli yanaşma qurulur, bunu təşkilat üzvlərinin Düşənbədə Narkotiklərlə Mübarizə Mərkəzinin yaradılması barədə qərarı sübut edir. Konseptual olaraq Bakının ŞƏT-də iştirakı Azərbaycanın xarici siyasətinin çoxvektorlu və balanslaşdırılmış xarakterini gücləndirməyə kömək edə bilər.

*- Özbəkistan Azərbaycanın ŞƏT-ə tamhüquqlu üzv olmasına necə töhfə verə bilər?*

- Azərbaycanın özünün mövqeyindən çox şey asılıdır. Hər bir ölkə öz milli maraqlarına və prioritetlərinə əsaslanaraq bu və ya digər beynəlxalq təşkilatda iştirak lehinə seçim edir. Biz görürük ki, rəsmi Bakı ŞƏT-in fəaliyyətinə getdikcə daha çox maraq göstərir. Bu o deməkdir ki, Azərbaycan hakimiyyəti təşkilatlanmada müəyyən potensial və Azərbaycanın inkişafı üçün imkanlar görür. Əgər Bakı öz statusunu dialoq üzrə tərəfdaşdan ŞƏT-in tamhüquqlu üzvünə yüksəltməyə çalışırsa, o zaman təşkilat üzvlərinin dəstəyini almalıdır. Özbəkistanın köməyinə gəlincə, mən Azərbaycanın ŞƏT-ə tamhüquqlu üzv kimi qəbulu məsələsində Daşkəndin Bakıya həm siyasi, həm də ekspertlər səviyyəsində dəstək verməsində heç bir maneə görmürəm. Özbəkistan ŞƏT-in həmtəsisçisi kimi, Azərbaycanın "Şanxay ailəsi"nə təşkilatın tamhüquqlu üzvü kimi qoşulmasını yalnız alqışlayacaq.

*- Bu ilin noyabrında Bakıda keçiriləcək COP29-dan gözləntiləriniz nədir? Özbəkistan COP29-a uğurla evsahibliyi etməkdə Azərbaycana necə dəstək verəcək? Ölkələrimiz "yaşıl enerji"nin inkişafı sahəsində necə əməkdaşlıq edə bilər?*

- Azərbaycan hakimiyyəti bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hərtərəfli hazırlaşır. Azərbaycanın belə mühüm beynəlxalq tədbirin təşkilinə nail olmasının özü artıq diplomatik qələbədir. Bu tədbirin uğurla keçirilməsi Azərbaycanın dünya ictimaiyyəti qarşısında nüfuzunu artıracaq. Daşkənd Bakının bu istiqamətdə səylərini tam dəstəkləyir. Özbəkistan nümayəndə heyəti bu sammitdə iştirakdan məmnun olacaq. Özbəkistan və Azərbaycan "yaşıl enerji"nin inkişafı çərçivəsində əməkdaşlığı gücləndirir. Bu sahədə perspektivli istiqamətlər arasında Özbəkistan, Azərbaycan və Qazaxıstanın Avropaya "yaşıl enerji" ixracı layihəsinin həyata keçirilməsi üzrə birgə planını qeyd etmək olar. "Yaşıl enerji" dəhlizinin həyata keçirilməsi və gələcək inkişafı təkcə qarşılıqlı faydalı deyil, həm də layihə iştirakçıları arasında iqtisadi-ticarət əməkdaşlığı üçün yeni imkanlar açır.




# "Anadolu" agentliyi COP29-u ən yüksək səviyyədə işıqlandıracaq

**Türkiyənin rəsmi "Anadolu" agentliyi Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını (COP29) ən yüksək səviyyədə işıqlandırmağı planlaşdırır. Bu sözləri agentliyin Ekoloji xəbərlər departamentinin rəhbəri Hale Aydoğmuş AZƏRTAC-a müsahibəsində deyib.**



Onun sözlərinə görə, COP29 kimi beynəlxalq tədbirlər dünya ictimaiyyəti üçün xüsusi əhəmiyyət kəsb edir.

Departament rəhbəri əlavə edib: "Planetin ekoloji gündəliyi ilə bağlı noyabr ayında Bakıda keçiriləcək müzakirələrdə Türkiyə liderlərinin də iştirakı planlaşdırılır. Bununla əlaqədar olaraq, "Anadolu" agentliyi Bakı ofisinin əməkdaşları ilə yanaşı, Ankaradan da bir qrup jurnalist və fotomüxbirlərin Azərbaycandakı tədbirin işıqlandırılmasına cəlb edilməsini öhdəsinə götürür".

Agentliyin nümayəndəsi qeyd edib ki, "Anadolu" əvvəlki COP sammitlərini də diqqətlə izləyib və işıqlandırıb.

Aydoğmuş vurğulayıb: "Biz ekoloji gündəmin geniş işıqlandırılması üçün AZƏRTAC və Azərbaycanın digər media orqanları, eləcə də qardaş ölkənin hökumət strukturları ilə əməkdaşlığa hazırıq". O, "Anadolu"nun Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə uğurlu əməkdaşlığını nümunə göstərib: "Əvvəllər agentliyimiz SOCAR və Türkiyə universitetlərinin dəstəyi ilə ətraf mühitin mühafizəsi, xüsusən neftlə çirklənmiş su hövzələrinin təmizlənməsi mövzusunda silsilə materiallar hazırlayıb. Biz Azərbaycanın bütün müvafiq strukturları ilə əməkdaşlığa açığıq".

"Anadolu" agentliyinin ətraf mühitin mühafizəsi mövzusuna xüsusi önəm verdiyini diqqətə çatdıran Aydoğmuş bildirib ki, bu kontekstdə bir neçə il əvvəl Türkiyədə ilk dəfə olaraq "Yaşıl xətt" adlı ayrıca ekoloji xəbərlər departamenti yaradılıb.

"İqlim dəyişiklikləri qlobal ölçülərə çatıb və biz ətraf mühitin mühafizəsi gündəliyinə öz töhfəmizi verməyə borcluyuq. Türkiyədə mühüm təşəbbüslərdən biri də Prezident Rəcəb Tayyib Ərdoğanın həyat yoldaşının təklif etdiyi "Sıfır tullantı" layihəsi olub. Həmin ideya BMT səviyyəsində yüksək qiymətləndirilib. Bu cür layihələr "Anadolu" üçün prioritet olaraq qalır", - deyə agentliyin departament rəhbəri vurğulayıb.

# COP29 könüllüləri İçərişəhərdə "Kiçik dostlarımız üçün təkrar istifadə" şüarı ilə ekoloji aksiya təşkil ediblər

**COP29 Azərbaycan Əməliyyat Şirkəti ətraf mühitin mühafizəsində kollektiv iştirakçılıq və məsuliyyətə çağırış olaraq "Kiçik dostlarımız üçün təkrar istifadə" şüarı altında ekoloji aksiya təşkil edib.**

COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbir "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun tərəfdaşlığı əsasında qədim tarixi və təbii gözəlliyi ilə seçilən İçərişəhərdə baş tutub.

Aksiya çərçivəsində COP29 könüllüləri əvvəlcədən toplanan tullantı materiallarından təkrar istifadə etməklə funksional quş yuvalarının hazırlanması üçün bir araya gəliblər. Praktiki fəaliyyətlə əhalinin marağına səbəb olan könüllülər aksiyaya qoşulan iştirakçılara müxtəlif növ tullantı materiallarından fərqli quş yuvalarının hazırlanması prosesini əyani nümayiş etdirib, tullantıların təkrar istifadəsi yolu ilə onların azaldılmasının faydası haqqında maraqlı faktlar bölüşüblər. Quş yuvaları daha sonra quş və kiçik heyvanların qida, su ehtiyaclarını təmin etməklə İçərişəhərdəki parkın ərazisində quraşdırılıb. Digər yuvaların isə Qala qoruğunda quraşdırılması nəzərdə tutulur.

COP29 könüllülərinin nəzəri bilik və praktiki fəaliyyətlərini birləşdirərək reallaşdırdıqları bu təşəbbüs mühüm iqlim məsələlərindən biri olan tullantıların idarə edilməsi və ətraf mühit, flora və faunanın mühafizəsi arasında əlaqənin vurğulanmasına, tullantıların məsuliyyətli idarə edilməsi kimi ekoloji dayanıqlı vərdişlərin gündəlik həyatda tətbiqinə ictimai diqqətin cəlb edilməsi, eləcə də kollektiv səylərin əvəzsiz rolunun bir daha diqqətə çatdırılmasına xidmət edib.

# İqlim dəyişmələrinin qarşısını almaq mümkündür

**Dünya ictimaiyyətini bu gün iqlim dəyişmələri olduqca narahat edir. Mütəxəssislərin rəyinə görə, iqlim dəyişmələrinin fəsadları müharibələrin törətdiyi dağıntı və fəlakətlərin həcminə bərabərdir. Mövcud vəziyyətin daha böyük faciələrə yol açmaması üçün dövlətlərlə bərabər, elm xadimləri, alimlər də əsaslı fəaliyyətə başlayıblar.**

Alimlərin əksəriyyəti qlobal istiləşmənin insan fəaliyyəti nəticəsində əmələ gəlməsinə şübhə etmir. Amma elmi araşdırmalara skeptik, yəni şübhə ilə yanaşanlar da var. Onlar iqlim dəyişmələrinin reallığına ya inanmır, ya da bu halı təbii proseslərin nəticəsi hesab edirlər. Beynəlxalq təqiqatçılar komandasının araşdırmalarının nəticələrinə görə, qlobal istiləşmənin antropogen təbiətinin sübutu elmi idrakın "qızıl standartı"na yaxınlaşır. Yalnız milyonda bir şans var ki, o da yanlış fərziyyədir. Bu nəticə Yer kürəsi səthinin temperaturu barədə onilliklər boyu alınan peyk məlumatlarının təhlili zamanı əldə olunub. Onlardan ikisinin "qızıl standart"a 2005-ci ildə, üçüncünün isə 2016-cı ildə çatması müəyyən edilib. 2013-cü ildə iqlim dəyişmələri üzrə hökümətlərarası ekspertlər qrupu belə nəticəyə gəlib ki, qlobal istiləşmə ən azı 95 faiz ehtimalla insan əli ilə baş verir. Alimlər ümid edirdilər ki, iqlim dəyişmələrinə qarşı mübarizədə dünya dövlətləri ni həmin mövqeyi dəstəkləməyə məcbur edəcəklər. Yerdən çıxarılan yanacaqdan imtina etməklə istixana qazlarının tullantılarını əhəmiyyətli dərəcədə azaldan inkişaf etmiş ölkələrin təcrübəsi alimlərin mövqeyi ilə üst-üstə düşür. Deməli, iqlim dəyişmələrinin qarşısını almağa bəşəriyyətin imkanları var.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına qoşulan 190-dan çox dövlət məhz bu proseslərdən əziyyət çəkən ölkələrdir. Həmin dövlətlər müxtəlif konfrans və seminarlar keçirərək "yaşıl enerji"yə keçidin reallaşmasına və atmosferə karbon qazının atılmasının azaldılmasına çalışırlar. Bu tədbirlər arasında konvensiya tərəfdarlarının konfransı (Conference of the Parties (COP) xüsusilə əhəmiyyətlidir. Sayına görə 29-cu konfrans (COP29) cari ilin noyabr ayında Bakıda keçiriləcək və bu tədbir ölkəmiz üçün mühüm xarakter daşıyır. Bakının belə bir möhtəşəm tədbirin keçirilməsi üçün seçilməsi təsadüfi deyil. Neft-qaz ölkəsi olan Azərbaycan "yaşıl enerji"yə keçid istiqamətində kifayət qədər addım atıb və atmaqdadır. İqlim dəyişmələrinin qarşısının alınması ilk növbədə istixana effektini törədən qazların atmosferə buraxılmasını ya sıfır səviyyəsinə endirilməsini, ya da əhəmiyyətli dərəcədə azaldılmasını tələb edir. Bu isə öz növbəsində bərpaolunmayan enerji mənbələrindən (kömür, neft, qaz, torf, müxtəlif növ bitumlar və s.) bərpaolunan enerjiyə (günəş, külək, su axarları və s.) keçmək deməkdir.



Alimlərin əksəriyyətinin fikrincə, qlobal istiləşmə Yer planetində antropogen fəaliyyət nəticəsində orta temperaturun uzun müddət (əsrlərlə) tədricən yüksəlməsi hesabına baş verir. 1850-ci ildən başlayaraq hər yeni onillikdə temperaturun əvvəlki onillikdən yüksək olduğu göstərilir. 1750-1800-cü illər ərzində orta qlobal temperatur 0,8-1,2$^0$C, sonrakı XXI əsrə qədərki dövrdə təxminən 0,3-1,7$^0$C artması qeyd edilir ki, bunun da əsasən istixana qazları hesabına baş verdiyi göstərilir.

Bəs, istixana qazları nə deməkdir, hansı zamandan elm aləminə məlum olub? Tibb üzrə fəlsəfə doktoru, Azərbaycan Tibb Universitetinin dosenti Şahalı Səmədov sualın cavabını belə açıqlayır: "İstixana effekti ilk dəfə 1824-cü ildə Jozef Furye, bu effekti yaradan qazlar isə 1896-cı ildə Svante Arrenius tərəfindən öyrənilib. İstixana effektini təxminən 36-37 faiz su buxarları (buludlar nəzərə alınmadan), 9-26 faiz karbon qazı , 4-9 faiz metan və 3-7 faiz ozon yaradır. Günəş radiasiyasının Yer səthini isitməsi hesabına oradan ayrılan infraqırmızı şüalar yenidən kosmosa doğru istiqamət götürən zaman havadakı istixana qazları onları udur və troposferin yer səthinə yaxın hissəsinin temperaturunun yüksəlməsinə səbəb olur. İstixana qazlarının təxminən yarısı insanın təsərrüfat fəaliyyəti nəticəsində yaranır və atmosferə qarışır. Yüksək temperatur ürək-damar sistemi və tənəffüs orqanları patologiyası olanlarda, xüsusən yaşlı insanlar arasında böyük təhlükə riski yaradır".

Massaçusets Texnologiya İnstitutunun (MIT) əməkdaşlarının araşdırmaları isə bir qədər ümidvericidir. Planetimizin tarixində dəfələrlə ciddi iqlim kataklizmləri baş versə də, Yer kürəsi salamat qalıb. MIT-ın əməkdaşları bunun sirrini aydınlaşdırıblar. Məlum olub ki, bizim planetdə "əks əlaqəni sabitləşdirən" bir mexanizm var. Bu mexanizm yüz min illər ərzində ekstremal iqlim dəyişmələrini tarazlaşdırır və bütün dünyada temperaturu həyat üçün münasib normaya qaytarır. Onlar son 66 milyon il ərzində orta qlobal temperatur haqqında paleoiqlim məlumatlarını təhlil ediblər. Həmin məlumatların riyazi analizi nəticəsində maraqlı bir qanunauyğunluq aşkar edilib: Yer kürəsinin temperatur dəyişmələri yüz min illər ərzində tarazlaşır. Ekspertlər daha əvvəl müşahidə ediblər ki, Yer kürəsinin karbon tsiklində iqlimi sabitləşdirə biləcək bir naməlum effekt var. Alimlər həmin effektin də təbiətini tədqiq ediblər. Qədim dağ süxurlarının kimyəvi analizi göstərib ki, hətta ciddi temperatur dəyişmələri zamanı da planetimizin ətraf mühitində karbonun miqdarı kifayət qədər sabit qalır.

Deməli, Yer planetini tamamilə yox etmək insan qüdrətində deyil. Amma iqlim dəyişmələrinin fəsadlarını aradan qaldırmaq insan oğlunun əlindədir. Son zamanlar davamlı ekstremal istiləri doğuran səbəblər, iqlim dəyişmələrinə təsir edən təbii və antropogen amillər, iqlim və hava məfhumlarının fərqli coğrafi izahları, biomüxtəliflik, o cümlədən iqlimin məhsulu olan səth və yeraltı suların formalaşma xüsusiyyətləri, su çatışmazlığı, onun həlli imkanları və s. üzərində çalışan elm adamları iqlim kataklizmlərini bəşəriyyətin üzləşdiyi ən böyük problem adlandırırlar. AMEA-nın Həsən Əliyev adına Coğrafiya İnstitutunun aparıcı elmi işçisi, coğrafiya elmləri doktoru, professor Rza Mahmudovun dediyinə görə, bu gün iqlim dəyişmələrinin tədqiqi, onun ətraf mühitə, o cümlədən çay, su ehtiyatlarına təsirinin öyrənilməsi Azərbaycan ərazisi və onun iqtisadiyyatı üçün vacib məsələyə çevrilib. Azərbaycan ərazisində regional iqlim dəyişmələrinin təsirindən müxtəlif növ təbii fəlakətlərin baş verməsi mümkündür. Bunlar sel, daşqın, subasma, güclü külək, qasırğa, dolu-leysan hadisələrinin təsiri, Xəzər dənizinin səviyyə tərəddüdü, arid iqlim zonasında səhralaşma prosesi, meşə yanğınları, torpaqların erroziyası, şoranlaşma və s. proseslərdən yaranan təbii fəlakətlərdir.

Məhz bu fəlakətlər daha da artmasın deyə hər il bir ölkədə düzənlənən COP tədbirləri zamanı dünya liderləri irəliləyişləri qiymətləndirmək və iqlim dəyişmələri ilə mübarizədə ən yaxşı həll yolları barədə müzakirələr aparmaq məqsədilə bir araya gəlirlər. Təbii ki, bu məsələdə elmi ictimaiyyətin də rəyi nəzərə alınır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# *Macar ekspert:* "Macarıstan Azərbaycanla "qaz dostluğu" yox, qardaşlıq dostluğu qurur"

**Macarıstan Azərbaycanın yaxın dostu və etibarlı tərəfdaşıdır. Qarşılıqlı etimada əsaslanan, günü-gündən yeni məzmunla zənginləşən Azərbaycan-Macarıstan münasibətlərinin hazırkı səviyyəsi qənaətbəxşdir. Avropa İttifaqına (Aİ) sədrlik edən Macarıstanın Baş naziri Viktor Orban bu ay Türk Dövlətləri Təşkilatının (TDT) Şuşada keçirilən sammitində iştirak edib. Sammitdə çıxış edən Baş nazir Türk Dövlətləri Təşkilatını Şərqlə Qərb arasında əməkdaşlığa yardım edən mühüm təşkilat kimi qiymətləndirdiyini bildirib. Bu mövzu ilə bağlı macar ekspert, Valday Beynəlxalq Diskussiya Klubunun üzvü Qabor Ştir AZƏRTAC-ın suallarını cavablandırıb.**



*- Viktor Orbanın Azərbaycana səfərinin nəticələrini necə qiymətləndirirsiniz və bu, ikitərəfli iqtisadi əlaqələrin inkişafına necə təsir edəcək?*

- Orbanın türk dünyası ilə əməkdaşlığı Macarıstanın həm geosiyasi, həm də iqtisadi imkanlarını genişləndirir. Hər iki istiqamət Avropa İttifaqının siyasətinə mükəmməl uyğun gəlir, çünki Brüssel son vaxtlar kəskin şəkildə Qafqaz regionuna yönəlib. Bu, ilk növbədə, sanksiyalar nəticəsində itirilən Rusiyanın enerji resurslarının əvəzlənməsi ilə bağlıdır. Region Çin və Avropa arasında ticarət yollarının mərkəzlərindən biri kimi Macarıstan üçün də böyük önəm daşıyır. Azərbaycan qazı vacibdir, lakin Macarıstanın Baş nazirinin dəfələrlə qeyd etdiyi kimi, Macarıstan "qaz dostluğu" qurmur, Azərbaycanla qardaşlıq dostluğu qurur. Hazırkı danışıqlarda Orban həm də Aİ prezidenti kimi regionla milli maraqlar baxımından əlaqələr qurub. Səfərin ən vacib nəticəsi Macarıstanın dünyanın ən böyük təbii qaz yataqlarından birində pay qazanması oldu. Bu, enerji bazarında əhəmiyyətli qiymət dalğalanmalarından və qeyri-müəyyənlikdən qorunma təmin edir. Bu tarixi razılaşma ilə Macarıstanın təchizat təhlükəsizliyi yeni ölçüyə çata bilər. "Şahdəniz" yatağı dünyanın ən böyük təbii qaz yataqlarından biridir. İllik hasilat təxminən 30 milyard kubmetrdir və hasil edilən qazın əhəmiyyətli hissəsi "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya çatır. Macarıstan tərəfdən MVM dövlət enerji şirkəti Azərbaycan qaz yatağının hasilatın pay bölgüsü sazişində 5 faiz pay alıb.

Azərbaycan Macarıstanın enerji təchizatında son dərəcə mühüm oyunçuya çevrildikdən sonra iki ölkə arasında strateji tərəfdaşlıq Macarıstana böyük rəqabət üstünlüyü və eyni zamanda əhəmiyyətli təhlükəsizlik verir. Lakin sıx əməkdaşlıq ənənəvi enerji mənbələri ilə məhdudlaşmır. Qara dənizin dibi ilə Azərbaycandan Macarıstana və Avropaya "yaşıl elektrik" enerjisi çatdıracaq nəhəng layihə sürətlənməkdədir. Macarıstan uzun illərdir ki, Azərbaycanla digər sahələrdə də əlaqələri sistemli şəkildə qurur. Nəticədə 120 milyon avroluq kommersiya dövriyyəsi ötən ilin rekordu olub. Bundan əlavə, macar şirkətləri işğaldan azad olunmuş Qarabağda yaşayış məntəqələrini bərpa edəcəklər. Onu da qeyd edək ki, Macarıstan hökuməti Qarabağ məsələsinə praqmatik yanaşır. Şuşada Viktor Orban Qarabağın qaytarılmasını regionun sabitləşməsi üçün atılan addım kimi qeyd edib.

*- Türk Dövlətləri Təşkilatının Şuşada keçirilən qeyri-rəsmi Zirvə toplantısında Qarabağ Bəyannaməsi imzalanıb. Bu sənəd Türk Dövlətləri Təşkilatının fəaliyyətinə necə töhfə verəcək? Təşkilat bu gün hansı problemlərlə üzləşir?*

- Şuşada imzalanan Qarabağ Bəyannaməsi türk sivilizasiyası arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində daha bir addımdır. Fikrimcə bu, enerji və ticarət əlaqələrini daha da yaxınlaşdıracaq, Türk dünyasını bütövlükdə daha da birləşdirəcək. Bu, dünyanın transformasiyası kontekstində çox zəruridir. Türk Dövlətləri Təşkilatına gəlincə, Şərqlə Qərb arasında əməkdaşlığın mühüm sütunlarından biridir. Bu, iqtisadi artım və həyat səviyyəsinin yüksəldilməsi üçün mühüm ilkin şərtdir və sabitlik həm də türk dünyasını geosiyasi mənada gücləndirir. Ticarət yolları və ondan keçən enerji ehtiyatlarına görə regionun sabitliyi Çin və Avropanın maraqlarına uyğundur, lakin ABŞ bunda birbaşa maraqlı deyil. Rəsmi Vaşinqton üçün bu regionda sabitliyi pozmaqla Pekin və Moskvanı təzyiq altında saxlamaq daha vacibdir.

*- Enerji sektorunda, o cümlədən bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində tərəfdaşlıq bu gün mühüm əhəmiyyət kəsb edir. Azərbaycanla Macarıstan arasında bu istiqamətdə əməkdaşlığı necə qiymətləndirirsiniz?*

- Artıq qeyd etdiyim kimi, enerji sektoru ölkələrimiz arasında əməkdaşlığın bəlkə də ən perspektivli sahəsidir. Bu da təsadüfi deyil, çünki Azərbaycan karbohidrogenlərlə, xüsusən də qazla zəngindir və bu sərvət Rusiya və Qərbin uzaqlaşmasından sonra ölkənin dəyərini xeyli artırıb. Amma Bakı bərpaolunan enerji layihələrinə də böyük diqqət yetirir ki, bu, əməkdaşlıq üçün daha bir fürsət deməkdir. Azərbaycan Avropaya daha çox qaz ixrac etmək, eləcə də özünün ilk irimiqyaslı bərpaolunan enerji mənbələrini qurmaq istəyir. Bundan əlavə, "yaşıl enerji" dəhlizinin yaradılması nəzərdə tutulur. Azərbaycan, Gürcüstan, Rumıniya və Bolqarıstanla əməkdaşlıq çərçivəsində Macarıstan da Avropaya böyük həcmdə "yaşıl enerji" idxal etmək niyyəti haqqında bəyannamə imzalayıb. Bunun üçün iştirakçı ölkələrin enerji şirkətləri müştərək şirkət yaradacaqlar və hər şey yaxşı olarsa, bu marşrut üzrə tədarüklər növbəti onilliyin əvvəlində başlaya bilər. Bunun üçün təbii ki, uzunluğu 1100 kilometrdən çox olan dünyanın ən uzun sualtı kəmərinin tikintisini başa çatdırmaq lazımdır. Bu, həm də onu göstərir ki, Macarıstan-Azərbaycan enerji əməkdaşlığında hələ də mühüm imkanlar mövcuddur.

*- "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyət Azərbaycan ilə TDT-yə üzv dövlətlər arasında mühüm əməkdaşlıq sahəsidir. TDT Azərbaycanın nəqliyyat sektorunun inkişafına, o cümlədən Orta dəhliz, eləcə də "Şimal-Cənub" marşrutu inkişafına necə töhfə verə bilər?*

- Həm Orta dəhliz, həm də "Şimal-Cənub" marşrutu regionu geosiyasi, kommersiya və logistika baxımından digər əsas regionlarla birləşdirərək genişləndirdiyi və gücləndirdiyi üçün bu istək yaxınlarda imzalanmış Qarabağ Bəyannaməsi ilə qismən gücləndirilir. Ona görə də Azərbaycan təkcə iqtisadi baxımdan deyil, həm də geosiyasi baxımdan bu layihələrin inkişafının qalibidir. Rəsmi Bakı ona görə şanslı vəziyyətdədir ki, "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutlarının reallaşmasında region dövlətləri ilə yanaşı, Çin, Rusiya və Avropa İttifaqı da maraqlıdır. Ona görə də bu layihələr üçün kapital ayrılacaq.

*- Bu ilin noyabrında Bakıda keçiriləcək COP29-dan gözləntiləriniz nədir? Macarıstan Azərbaycana COP29-a uğurla evsahibliyi etməkdə necə dəstək ola bilər?*

- COP29-a evsahibliyi etmək Azərbaycana öz nailiyyətlərini və iqlim dəyişikliyi məsələləri, eləcə də ekoloji problemlərlə mübarizədə effektivliyini nümayiş etdirmək üçün əla imkan verir. Bu, ətraf mühitin mühafizəsi fəaliyyətlərinə yeni texnologiyaların cəlb edilməsi də daxil olmaqla, gələcək əməkdaşlığın başlanmasını asanlaşdıra bilər. Bu, həm də o deməkdir ki, yeni birgə layihələrə başlamaq, ən müasir texnologiyalardan istifadə etmək olar. Qarabağdakı inkişaf layihələrinə gəlincə, buradakı bütün inkişafları ekoloji cəhətdən təmiz, davamlı inkişaf və dairəvi iqtisadiyyat prinsiplərindən istifadə etməklə həyata keçirmək tamamilə müdrik fikirdir. Burada hidroenergetika sahəsində təqdim olunan layihələr, günəş-elektrik stansiyalarının yaradılması şübhəsiz ki, gələcəkdir. Əminəm ki, bu, yerli iqtisadiyyata dəstək olacaq. Adıçəkilən konfrans bir çox layihələrə təkan verə bilər. Çin bu məsələdə mühüm vasitəçilik rolunu oynaya bilər. Macarıstan Azərbaycana enerji səmərəliliyi baxımından kömək edə bilər və Aİ də bu mövzuya daha çox önəm verəcək. Görüşün Bakıda keçirilməsi isə bu regionda "yaşıl layihə"lərə yeni təkan verə bilər.

# Şuşada "İslam dünyasında qadınlar: ənənələr və çağırışlar" mövzusunda konfrans keçirilib



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Şuşa şəhərində "İslam dünyasında qadınlar: ənənələr və çağırışlar" mövzusunda konfrans keçirilib.**






AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbiri açan Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, konfransın məqsədi qadının dəyəri, onun statusu və hüquqları barədə mövcud yanaşmalar haqqında ətraflı fikir mübadiləsi aparmaqla islam mədəniyyətinin təbliğində qadınların rolunun gücləndirilməsinin vacibliyini bir daha vurğulamaq, onları islam dünyasının inkişafına yönələn bütün istiqamətlərdə fəal olmağa çağırmaqdır.

Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsini önəmli hadisə olduğunu vurğulayan komitə sədri deyib: "Bu gün Azərbaycan siyasi, iqtisadi və mədəni cəhətdən nəinki regional, hətta qlobal dialoq məkanına çevrilib. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 ölkəmizdə keçiriləcək.

Məlum olduğu kimi, dövlətimizin başçısı İlham Əliyevin müvafiq Sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. İndi Yer kürəsinin hər hansı regionunda baş verən təbii fəlakət təkcə həmin ərazinin deyil, bütün dünyanın problemi sayılır.

Bəşəriyyətin yaranması, inkişaf etməsi, eləcə də yenilənməsində əvəzsiz rol oynayan qadınlar bu gün belə qlobal problemləri aradan qaldırmağın yollarını kişilərlə birgə axtarırlar. COP29-un Təşkilat Komitəsində qadınların da iştirakı bunun əyani sübutudur".

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov ölkəmizin İslam dünyasının bir parçası olduğunu, tarixdə qazandığı nailiyyətləri ilə bir çox ilklərə imza atdığını söyləyib. Şərqdə ilk qadın opera bəstəkarının, ilk təyyarəçi xanımın, ilk qadın kinorejissorun azərbaycanlı olduğunu xatırladan komitə sədri bunun Azərbaycan qadınının İslam dünyasında mütərəqqi ənənələrin inkişafına önəmli töhfələr verdiyini təsdiqləyən faktların yalnız bir hissəsi olduğunu bildirib. Deyib ki, bu, həmçinin xalqımızın böyüklüyünü, müdrikliyini, ümumbəşəri dəyərlərə bağlılığını göstərir.

İşğala son qoyduqdan sonra dövlətimiz azad olunmuş torpaqlarda xariqələr yaratdığını söyləyən R.Məmmədov Qarabağda həyata keçirilən bərpa və quruculuq işlərində ən həssas istiqamətlərdən birinin tarixi, dini və mədəniyyət abidələrinin bərpası olduğunu söyləyib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən Qarabağ və Şərqi Zəngəzurda tarixi və mədəniyyət abidələrinin bərpası işlərinin uğurla həyata keçirildiyini diqqətə çatdırıb.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı ölkəsindəki qadınların hüquqlarından danışıb, onların bir çox sahələrdə rəhbər vəzifələrdə çalışdıqlarını diqqətə çatdırıb.

"Türkiyə və Azərbaycanda qadın hüquqlarına hörmət bir çox ölkələrə baxdıqda daha ön sıralarda yer alır", - deyə o bildirib.

Səfir qeyd edib ki, ölkələrimiz arasında qadın və uşaqlarla bağlı bir çox proqramlar, layihələr həyata keçirilir.

VI çağırış Milli Məclisin deputatı, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova vurğulayıb ki, qadın və uşaq hüquqları ilə bağlı ciddi maarifləndirmə aparılmalıdır. Ümidvaram ki, görülən tədbirlər nəticəsində müsəlman qadınları dünyada terrorçu kimi deyil, vəkil, siyasətçi, həkim, müəllim, savadlı insan, ailənin təməli kimi tanınacaqlar.

O, bəzi İslam ölkələrində hələ də qadınların hüquqlarının pozulması hallarının baş verdiyini deyib. "İslam Əməkdaşlıq Təşkilatı, həmçinin müxtəlif ölkələrin müvafiq qurumları və İslam dünyasının problemlərini araşdıran təsisatlar bu istiqamətdə önəmli tədbirlər təşkil edir", - deyə Hicran Hüseynova diqqətə çatdırıb.

Mədəniyyət nazirin müavini Səadət Yusifova qadınların əzəldən bəri dialoq tərəfdarı olduqlarını, tarixin yeni dönəmində Azərbaycanın quruculuğuna, "Yaşıl dünya naminə həmrəylik ili"nə öz töhfələrini verdiklərini, Böyük qayıdışın aparıcı qüvvələrindən olduqlarını deyib. O, Azərbaycan qadınının həm ailədəki, həm də cəmiyyətdəki sarsılmaz mövqeyinin dövlətimizin uğurlu sosial siyasətinin nəticəsi olduğunu vurğulayıb.

❖ ❖ ❖

Konfrans işini Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun moderatorluğu ilə keçirilən panel iclasla davam etdirib.

Komitə sədrinin müavini İslam coğrafiyasında qadınların təhsilalma hüququnun dünyada ümumi göstəricidən tam aşağı olduğunu deyib.

Qeyd edib ki, islam dünyasında müsəlman kişilər 6,9 il təhsil aldıqları halda, müsəlman qadınlarda bu rəqəm 4,9 il təşkil edir. Müsəlman kişilərinin yalnız 10 faizi, qadınların isə 6 faizi təhsilini davam etdirir.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin böyük məsləhətçisi Nərgiz Qaracayeva Qarabağın quruculuğunda və dayanıqlı inkişafında qadınların rolu haqqında danışıb. O diqqətə çatdırıb ki, hazırda işğaldan azad edilmiş Ağalı kəndində qadınların sayı kişilərdən çoxdur.

VI çağırış Milli Məclisin Deputatı Ceyhun Məmmədov Azərbaycan cəmiyyətinin ən vacib yanaşmalardan biri olan qızların mütləq şəkildə təhsil almalarının önəmini qeyd edib.

C.Məmmədov bəzi ölkələrdə qadın və kişilərin bir məkanda, fərqli tədbirlərdə iştirak etmək hüquqlarının olmadığı məsələsinə də toxunub.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova Şuşanın tanınmış qadın şəxsiyyətlərinin şəhərin tarixində rolundan bəhs edib. Rektor Xurşidbanu Natəvan, Ağabəyim Ağa, Fatma xanım Kəminə kimi ədiblərin Azərbaycanın mədəniyyətinə böyük töhfələr verdiklərini bildirib.

Qafqaz Müsəlmanları İdarəsinin İctimaiyyətlə əlaqələr və ailə problemləri üzrə sədr müavini Qəmər Cavadlı Azərbaycanın mina problemindən bəhs edib. Bildirilib ki, ermənilər işğaldan azad olunan əraziləri minalayıblar. Bu qeyri-insani addımın təkcə İslamda deyil, bütün dinlərdə tənqid olunduğu vurğulanıb.

"Əhməd Ağaoğlu" İctimai Birliyinin sədri Nigar Axundova isə öz növbəsində, Əhməd bəy Ağaoğlunun müsəlman cəmiyyətində qadınlara olan münasibətindən söz açıb.

Tədbir müzakirələrlə davam edib.

# Mədəniyyət paytaxtımızda növbəti Vaqif Poeziya Günləri başlayıb

**İyulun 18-də Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi önündə Vaqif Poeziya Günlərinin açılışı olub.**







AZƏRTAC xəbər verir ki, Vaqif Poeziya Günləri Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilir.

Açılış mərasimində dövlət və hökumət rəsmiləri, respublikanın tanınmış elm və mədəniyyət xadimləri, Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvləri, gənc yazıçılar, şairlər, eləcə də ilk dəfə olaraq yerli sakinlər iştirak ediblər.

Açılış mərasimində Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev çıxış edərək Şuşada belə bir möhtəşəm tədbirdə iştirakdan məmnun olduğunu söyləyib. Bildirib ki, builki Vaqif Poeziya Günləri bir çox mühüm, əlamətdar hadisələrlə üst-üstə düşür: "İlk olaraq onu qeyd edim ki, builki tədbir Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü tam bərpa edildikdən və Qarabağ savaşında yekun Qələbə qazanılandan sonra keçirilən ilk poeziya bayramıdır. Bundan əlavə, Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunub. Bu il həmçinin dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530, Azərbaycan Yazıçılar Birliyinin isə 90 illik yubileyləri qeyd olunur. Builki şeir bayramında AYB-nin 100-dən çox üzvü iştirak edir".

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Molla Pənah Vaqifin yaradıcılığından söz açıb. Qeyd edib ki, Vaqif Azərbaycan ədəbiyyatında ədəbi məktəb yaradan şairlərdəndir. Bu, hər qələm adamına nəsib olan xoşbəxtlik deyil. Həmçinin onu özündən əvvəlkilərdən fərqləndirən əsas cəhətlərdən biri də ilk dəfə olaraq Azərbaycan coğrafiyasını açıq və geniş şəkildə ədəbiyyatımıza gətirməsidir. Onun yaradıcılığı hər şeydən əvvəl azərbaycançılıq hadisəsidir. Hesab edirik ki, sovet hökumətinin məkrli şəkildə Qarabağda beynəlmiləlçilik hərəkatını, siyasətini həyata keçirdiyi bir zamanda Ümummilli Lider, görkəmli dövlət xadimi Heydər Əliyevin Şuşada Vaqifə belə bir əzəmətli məqbərə ucaltması Qarabağa Azərbaycanın möhürünü vurması demək idi: "Eyni zamanda Prezident İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş Şuşada Vaqifin məqbərəsinin yenidən bütün əzəməti ilə bərpa edilməsi mühüm əhəmiyyətə malikdir. Yenidən təşkil olunan Vaqif Poeziya Günləri Prezident İlham Əliyevin liderliyi ilə gündən-günə gözəlləşən Azərbaycanın şeir-sənət dili ilə ifadə olunan böyük təntənəsidir. Mən bu gözəl tədbirə görə Vaqif Poeziya Günlərinin təşkilatçılarına öz minnətdarlığımı bildirirəm".

Xalq yazıçısı Elmira Axundova Ulu Öndər Heydər Əliyevin hər zaman Azərbaycan dilinə, ədəbiyyatına sonsuz sevgisindən, qayğısından danışıb. Bildirib ki, hələ sovet dövrünün ən çətin vaxtlarında Heydər Əliyev milli düşüncənin, azərbaycançılıq ideyasının yaşamasına, inkişafına təkan verib. Bu düşüncəni yaşadan, gələcək nəsillərə çatdıran əsərlərə Dövlət Mükafatının verilməsinə nail olub.

Vaqif Poeziya Günlərində ilk dəfə iştirak etdiyini söyləyən Xalq yazıçısı bundan böyük xoşbəxtlik duyduğunu söyləyib, bu günləri bizə yaşadan Ali Baş Komandanımıza, qəhrəman ordumuza minnətdarlığını çatdırıb.

VI çağırış Milli Məclisin deputatı Fazil Mustafa söyləyib ki, bu gözəl məkanda bəlkə də ilk xatırladığımız 1980-ci illərə aid rəsmdir: "O rəsmin mənası fərqli cür yozula bilər. Amma rəsmdə Ümummilli Lider Heydər Əliyevin çiyninə yağan o gözəl qar bir xeyir-dua verirdi ki, Vaqifin məqbərəsi açılır. Amma illər keçəndən sonra o gözəl qarın ardınca bir qar uçqunu gəldi. Bu məqbərə də daxil olmaqla bütün Şuşa bu uçqunun altında qaldı. Otuz ilə yaxın biz Şuşanı o uçqunun altından təmizləyə bilmədik. Bu bizə həm də onu göstərdi ki, qazandığımız dəyərləri nə vaxtsa itirmək riskini göz önünə almalıyıq. Ona görə də elə bir möhkəm zəmin yaratmalıyıq ki, o uçqun təmizləndə altından o dəyərləri yenidən canlandıra bilək. Ali Baş Komandan İlham Əliyevin böyük təşkilatçılıq qabiliyyəti, Azərbaycan Ordusunun böyük rəşadəti ilə torpaqlarımız işğaldan azad olundu. Azad olunandan sonra o uçqunun altından çıxan bu mavzoley, burada yaşamış böyük şəxsiyyətlərin ruhları oldu. Bu gün Şuşa Azərbaycanın rəmzinə çevrilən bir məkan olaraq yenidən öz gücünü möhkəmləndirir".

Daha sonra çıxış edən Xalq şairi Sabir Rüstəmxanlı, Azərbaycan Mətbuat Şurasının sədri, AYB-nin sədr müavini Rəşad Məcid, AYB-nin katibi, şair-tərcüməçi Səlim Babullaoğlu və AYB-nin Qazax bölməsinin sədri Barat Vüsal Şuşanın füsunkarlığı, qeyri-adi təbiəti, bənzərsizliyi, beynəlxalq tədbirlərin ünvanına çevrilməsindən danışaraq şeirlərini söyləyiblər.

Bədii hissədə Əməkdar artistlər Azad Şükürov və Nazir Rüstəmovun ifasında Məhəmməd Füzuli və Molla Pənah Vaqifin poetik dueti təqdim edilib.

Əməkdar artist Nigar Şabanova, solistlər Abgül Mirzəliyev, İlkin Dövlətov və Leyla Rəhimli konsert proqramı ilə çıxış ediblər.

Proqramda "Qarabağ kompozisiyası", "Şuşanın dağları" və "Bura Vətəndir" musiqi əsərləri səsləndirilib.

## *İlqar FƏHMİ:* "Vaqif Poeziya Günləri əlamətdar hadisələri özündə birləşdirir"

**"Qarabağ işğaldan azad edildikdən sonra Azərbaycan Prezidentinin imzaladığı sərəncamlardan biri də Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında olub. Beləliklə, mədəniyyət paytaxtımız Şuşa şəhərində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının, Vaqif Poeziya Günlərinin keçirilməsi ənənəsi bərpa edilib. Ötən 4 ildə qala-şəhərimizdə təşkil olunan bu və digər tədbirlər çox möhtəşəm keçirilib. Builki Vaqif Poeziya Günləri də olduqca zəngin, çoxşaxəli formada təşkil olunub".**

Bu fikirləri AZƏRTAC-a Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi İlqar Fəhmi söyləyib.

"Bu il artıq bərpadan sonra dördüncü dəfədir ki, ölkəmizdə Vaqif Poeziya Günləri keçirilir. Builki tədbir Azərbaycan Yazıçılar Birliyinin yaranmasının 90 illik yubileyi ilə üst-üstə düşür. Bundan əlavə, 2024-cü il üçün Şuşa "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunub. Bu səbəbdən Azərbaycan xalqının klassik İslam mədəniyyətinə, elminə, ədəbiyyatına verdiyi böyük töhfələri əks etdirən ədəbi-bədii kompozisiyalar da tədbir çərçivəsində təqdim olunacaq. Həmçinin bu il dahi şairimiz Məhəmməd Füzulinin 530 illiyi dövlətimizin başçısının müvafiq Sərəncamı ilə silsilə tədbirlərlə qeyd olunur. Belə bir yaddaqalan tarixi hadisələrin fonunda keçirilən Vaqif Poeziya Günləri olduqca əlamətdardır", - deyə AYB-nin katibi bildirib.

# Şuşada "Füzuli hücrələri"





**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşa şəhərində Vaqif Poeziya Günləri davam edir.**



AZƏRTAC xəbər verir ki, iyulun 18-də Xan qızı Xurşidbanu Natəvanın evinin qarşısında dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illiyinə ithaf olunan "Füzuli hücrələri" adlı teatral kompozisiya təqdim edilib. Füzulinin əsərlərindən ibarət teatral kompozisiyanı dövlət və hökumət rəsmiləri, respublikanın tanınmış elm və mədəniyyət xadimləri, Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvləri, gənc yazıçılar, şairlər, eləcə də yerli sakinlər izləyiblər.

Təqdimatdan əvvəl çıxış edən AYB-nin katibi, kompozisiyanın ssenari müəllifi İlqar Fəhmi dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin zəngin yaradıcılığından söz açıb. Bildirib ki, bədii-musiqili kompozisiyada Məhəmməd Füzulinin "Bəngü-badə", "Leyli və Məcnun", "Səhhət və Mərəz", "Rindü Zahid" və s. əsərlərindən istifadə olunub.

Qonaqların böyük marağına səbəb olan kompozisiyanın quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimovdur.

Kompozisiyada Şuşa Dövlət Musiqili Dram Teatrı, Azərbaycan Dövlət Pantomima Teatrı və Azərbaycan Dövlət "Yuğ" Teatrının aktyorları, Əməkdar artistlər Nazir Rüstəmov, Azad Şükürov, Bəhruz Vaqifoğlu, Teymur Məmmədov, Qasım Nağı, həmçinin Orxan Abışov, Püstəxanım Zeynalova, Jalə Novruz, Zəhra Salayeva, Sürahi Əliməmmədova, Nurlan Rüstəmov, Cavad Nuriyev, Elnur İsmayılov, Nihat Heybətov, eləcə də Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və Bakı Xoreoqrafiya Akademiyasının tələbələri iştirak ediblər.

Vaqif Poeziya Günləri Şuşa şəhərində iyulun 19-da da davam edəcək.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada böyük şair və dövlət xadimi Molla Pənah Vaqifin (1717-1797) məqbərəsinin və Poeziya evinin təntənəli açılışı olub. Məhz həmin tədbirdə Heydər Əliyev ədəbiyyat xadimlərimizin bu yöndə təşəbbüsünü dəstəkləyərək Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verib. Söz-sənət bayramı ilk dəfə 1982-ci ilin iyulunda təşkil edilib.

Qırx iki illik tarixə malik Vaqif Poeziya Günləri işğaldan azad edilmiş Şuşada artıq dördüncü dəfədir təşkil olunur.



# ŞUŞA İslam dünyasının mədəniyyət paytaxtıdır




● Ruhumuzun şəhəri

# Şuşanın çal-çağırlı günləridir

**Yenə Azərbaycanın mədəniyyət mərkəzi, Qarabağın incisi Şuşanın çal-çağırlı, qonaq-qaralı günləridir. Qala - şəhərimizdə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə növbəti Vaqif Poeziya Günləri keçirilir.**

İyulun 18-də Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi önündə Vaqif Poeziya Günlərinin açılışı mərasimi keçirildi. Mərasimdə dövlət və hökumət rəsmiləri, respublikanın tanınmış elm və mədəniyyət xadimləri, Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvləri, gənc yazıçılar, şairlər və ilk dəfə olaraq yerli sakinlər iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev builki Vaqif Poeziya Günlərinin bir çox mühüm əlamətdar hadisələrlə üst-üstə düşdüyünü vurğulayıb: "İlk olaraq onu qeyd edim ki, builki tədbir Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü tam bərpa edildikdən və Qarabağ savaşında yekun Qələbə qazanılandan sonra keçirilən ilk poeziya bayramıdır. Bundan əlavə, Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunub. Bu il həmçinin dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530, Azərbaycan Yazıçılar Birliyinin isə 90 illik yubileyləri qeyd olunur. Builki şeir bayramında AYB-nin 100-dən çox üzvü iştirak edir".

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik İsa Həbibbəyli Molla Pənah Vaqifin yaradıcılığından danışıb. Diqqətə çatdırıb ki, Vaqif Azərbaycan ədəbiyyatında ədəbi məktəb yaradan şairlərdəndir.

Mərasimdə Xalq yazıçısı Elmira Axundova, Milli Məclisin deputatı Fazil Mustafa, Xalq şairi Sabir Rüstəmxanlı, Azərbaycan Mətbuat Şurasının sədri, AYB-nin sədr müavini Rəşad Məcid, AYB-nin katibi, şair-tərcüməçi Səlim Babullaoğlu və AYB-nin Qazax bölməsinin sədri Barat Vüsal çıxış ediblər.

Tədbirin bədii hissəsində Əməkdar artistlər Azad Şükürov və Nazir Rüstəmovun ifasında Məhəmməd Füzuli və Molla Pənah Vaqifin poetik dueti təqdim olundu. Əməkdar artist Nigar Şabanova, solistlər Abgül Mirzəliyev, İlkin Dövlətov və Leyla Rəhimli konsert proqramı ilə çıxış ediblər. "Qarabağ kompozisiyası", "Şuşanın dağları" və "Bura Vətəndir" musiqi əsərləri səsləndirilib.

Xatırladaq ki, 1982-ci il yanvarın 14-də Şuşada Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə görkəmli şair və dövlət xadimi Molla Pənah Vaqifin (1717-1797) məqbərəsinin və Poeziya evinin təntənəli açılışı olub. Həmin tədbirdə Heydər Əliyev ədəbiyyat xadimlərimizin bu yöndə təşəbbüsünü dəstəkləyərək Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verib. İlk dəfə 1982-ci ilin iyulunda Vaqif Poeziya Günləri təşkil olunub. 1992-ci ildə Ermənistanın Şuşanı işğal etməsi ilə yarımçıq qalan tədbir böyük Zəfərimizdən sonra 2021-ci ildən yenidən bu şəhərdə keçirilib. Vaqif Poeziya Günləri işğaldan azad edilmiş Şuşada artıq dördüncü dəfədir təşkil olunur.

İyulun 18-də Şuşa daha bir tədbirə evsahibliyi edib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə bu şəhərdə "İslam dünyasında qadınlar: ənənələr və çağırışlar" mövzusunda konfrans keçirilib. Tədbir Nazirlər Kabinetinin sərəncamı ilə təsdiqlənən Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planı çərçivəsində təşkil olunub.




Tədbirdə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Milli Məclisin deputatı, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Mərakeş Krallığının həmrəylik, sosial inteqrasiya və ailə naziri xanım Aavatif Hayar, ictimaiyyət nümayəndələri, media təmsilçiləri və müxtəlif dövlət qurumlarının əməkdaşları iştirak ediblər. Konfransda müzakirələr Qarabağın bərpasında və dayanıqlı inkişafında qadınların rolu, qloballaşan dünyada ümumislam kontekstində qadın hüquqlarının müdafiəsi, insan və ətraf mühit münasibətlərinə islami baxış və digər istiqamətlərdə aparılıb.

Konfransın ilk günü - iyulun 17-də iştirakçılar şəhərin tarixi məkanlarında olublar. Onlara işğal dövründə mədəniyyət abidələrimizə ermənilərin saysız-hesabsız ziyan vurduqları, saxtalaşdırdıqları barədə məlumat verilib. Şuşa işğaldan azad edildikdən sonra burada başlanılan genişmiqyaslı bərpa-quruculuq işlərindən, tarixi və mədəniyyət abidələrinin bərpasından danışılıb. Konfrans iştirakçıları "İsa bulağı" istirahət kompleksində bərpa işləri ilə tanışlıqdan sonra Qarabağ xanının vəziri, şair Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə baş çəkiblər. Onlara Şuşa qala divarları ilə tanışlıq zamanı şəhərin tarixi, qala divarlarının tikilməsi barədə bilgi verilib. Sonra qonaqlar Cıdır düzünə gedib, əsrarəngiz təbiət mənzərəsini seyr ediblər.

İyulun 17-də Qazaxıstanda fəaliyyət göstərən diasporumuzun rəhbərlərindən və fəallarından, qardaş xalqın təmsilçilərindən ibarət nümayəndə heyəti də Şuşanın qonağı olublar. Azərbaycana səfər çərçivəsində Füzuliyə, sonra Şuşaya səfər edən qonaqlar Qarabağda erməni vandalizminin sübutu olan dağıdılmış, xarabalıqlara çevrilmiş kəndlərimizi görüblər. Onlar Azərbaycanın işğaldan azad etdiyi ərazilərində həyata keçirdiyi yenidənqurma, təmir-bərpa işlərini böyük məmnunluqla müşahidə ediblər.

Şuşada qonaqlar güllələnmiş heykəllər, Yuxarı Gövhər ağa məscidi, İsa bulağı, Vaqifin məqbərəsi, Cıdır düzü və digər görməli yerləri ziyarət ediblər.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

● İncəsənət xadimləri

# Məşhur heykəltaraş Cəlal Qaryağdının yaradıcılıq yolu



**Azərbaycan heykəltaraşlıq məktəbinin formalaşmasında və inkişafında onun əvəzsiz xidmətləri olub. O, bədii yaradıcılıq fəaliyyəti ilə adını Azərbaycan təsviri sənət tarixinə əbədi daxil edib. Bu görkəmli tişə ustası Xalq rəssamı Cəlal Qaryağdıdır (1914-2001). Bu il heykəltaraşın anadan olmasının 110 illiyi qeyd olunur.**






Cəlal Məhərrəm oğlu Qaryağdı Azərbaycanın qədim incəsənət beşiyi və füsunkar təbii gözəllikləri ilə insanları valeh edən Şuşa şəhərində dünyaya göz açıb. O, əvvəlcə ixtisas təhsilinə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda (1928-1932), daha sonra isə Tbilisi Dövlət Rəssamlıq Akademiyasında (1932-1935) yiyələnib. Gənc heykəltaraş sənətin xüsusi incəliklərini müəllimi Gürcüstanın Xalq rəssamı, professor Y.İ.Nikoladzedən əxz edib. C.Qaryağdı yaradıcılığının lap erkən dövrlərindən sərgi və müsabiqələrdə uğurla iştirak edib. Heykəltaraş 1954-cü ildə Azərbaycanın Əməkdar incəsənət xadimi, 1960-cı ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülüb.

C.Qaryağdı heykəltaraşlığın müxtəlif sahələrində - monumental heykəl, portret, büst, qorelyef, barelyef və digər bir-birindən maraqlı əsərlər yaradıb. Görkəmli tişə ustasının yaradıcılığının səciyyəvi xüsusiyyətləri kimi, obrazların mahiranə plastik həllini, kompozisiya bitkinliyini, yaradıcılıq manerasının genişliyini, surətlərin fərdi xarakterlərinin ustalıqla açılmasını, heykəltaraşın özünə qarşı ciddi yaradıcılıq tələbkarlığını və digər xüsusiyyətləri qeyd etmək olar.

C.Qaryağdının monumental heykəltaraşlıq əsərləri ölkəmizin paytaxtı Bakı şəhəri ilə yanaşı, bölgələri də bəzəyir və tamaşaçıların bədii-estetik zövqünün formalaşmasına müsbət təsir göstərir. Onun monumental heykəltaraşlıq əsərlərinə nümunə olaraq Molla PənahVaqifin heykəli (1939-40, Bakı, Nizami adına Ədəbiyyat Muzeyinin qərb fasadının lojası), Mirzə Ələkbər Sabirin heykəli (tunc, qranit, 1958, memarlar Ənvər İsmayılov və Qəzənfər Əlizadə, Bakı), Nəriman Nərimanovun heykəli (tunc, qranit, 1966-68, memar Tahir Abdullayev, Bakı, açılışı 1972-ci ildə olmuşdur), həmçinin Qazaxda Səməd Vurğunun heykəli (1966), Ordubadda akademik Yusif Məmmədəliyevin abidəsi (1977), Lənkəranda Həzi Aslanovun heykəli (1983) və başqalarını göstərmək olar.

Bakı şəhərinin mərkəzində ucaldılmış Azərbaycanın satirik şeirinin ən görkəmli nümayəndələrindən olan M.Ə.Sabirin heykəlini həmin məkandan kənar təsəvvür etmək mümkünsüzdür. Oturmuş halda, başında buxara papaq, sağ əlində dillər əzbərinə çevrilmiş "Hophopnamə"sini tutmuş vəziyyətdə təsvir edilmişdir.

Abidənin ətraf aləmlə və heykəlin postamenti ilə üzvi bağlılığı ustalıqla tapılıb və son dərəcə uğurlu həll edilib. Azərbaycanın görkəmli maarifçisi və dövlət xadimi N.Nərimanovun əzəmətli heykəli C.Qaryağdının cəlbedici əsərlərindəndir. Lakin bu nəhəng abidənin postamentlə uyğunsuzluğu gözə çarpır. Heykəltaraşın həyat yoldaşı Firəngiz Hüseynova abidə barədə deyirdi: "Hələ o vaxt, abidənin açılışına az qalmış Moskvaya məktub göndərib, azərbaycanlıların Bakıda Kirovun heykəlindən hündür heykəl ucaltmaq istədiklərini xəbər verdilər. Heykəl hazır idi. Tuncdan tökülmüş abidənin kiçildilməsi mümkün deyildi. Ancaq sovet hökuməti Nərimanovun öz xalqına Kirovdan uca nöqtədən baxmasına yol vermədi. Heykəlin postamenti kiçildildi. Cəlal o zaman bundan çox narazı qaldı". Məşhur kimyaçı alim, akademik Yusif Məmmədəliyevin Ordubad rayonunun mərkəzində ucaldılmış abidəsi şəhərə xüsusi yaraşıq verir və bu abidə həmyerlilərinin qürur mənbəyinə çevirilib.

C.Qaryağdı həmçinin tanınmış incəsənət xadimlərinin və hərbçi qəhrəmanların büst-portretlərinin müəllifidir. Bunlara misal olaraq Sövet İttifaqı qəhrəmanları Adil Quliyevin (1945) və Həzi Aslanovun (1948-49), snayperçi qadın Ziba Qəniyevanın (1948), rəssam Bəhruz Kəngərlinin (1947), vokalçı Bülbülün (1948), şairə Xurşid Banu Natəvanın (1949), şair Mirzə Ələkbər Sabirin (1962), bəstəkar Qara Qarayevin (1963), bəstəkar Fikrət Əmirovun (1964) büstlərini və həmçinin "Tarzən", "Kamançaçı", "Xanəndə" (hamısı 1967) fiqurlarını qeyd etmək olar. Tişə ustasının yaradıcılığında hərbçilərə və qəhrəmanlara xüsusi yer ayırması təqdirəlayiqdir və bu tendensiyanın digər sənət adamlarının da yaradıcılığına sirayət etməsi arzu ediləndir. Heykəltaraşın dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasının motivləri əsasında yaratmış olduğu "Fərhad Bisütun dağını yararkən" adlı barelyefi (1947) diqqətçəkəndir. Əsər barəsində sənətşünaslıq doktoru Nurəddin Həbibov yazır: "Qabartma heykəli dərin ekspressiya qüvvəsinə malikdir. Gərgin dramatik vəziyyətdə verilən Fərhadın fiquru Bisütun dağının sərt cizgiləri fonunda möhtəşəm və əzəmətli görünür".

Azərbaycan təsviri sənətinin inkişafına özünün bədii yaradıcılıq nümunələri ilə töhfələr bəxş etmiş Cəlal Qaryağdı kimi sənət ustaları xalqımız və dövlətimiz tərəfindən həmişə xüsusi ehtiramla anılır.

*Əsəd QULİYEV, Aəzəpbaycan Rəssamlar İttifaqının üzvü, sənətşünas*



# Qarabağ milli geyimləri Şuşada

**Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı ilə XVIII-XIX əsrlərdə Qarabağ bəyləri və xanımlarına məxsus geyimlərin orijinal eskizləri əsasında hazırlanmış Qarabağ milli geyimləri nümayiş olunur.**

AZƏRTAC xəbər verir ki, milli geyimlər 9:30-18:30 arasında Xanlıq Muxtar Karvansarasında ("Güllü bağça" ilə üzbəüz) Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən sərgilənir.



● Əsilzadələr

# Pənahəli xanın nəticəsi Behbud xan Cavanşir

**Azərbaycanın istənilən şəhərində, bölgəsində elə nəsillər var ki, onları çox vaxt mənsub olduqları soyadları ilə tanıyırlar. Məşhur "Cavanşir" soyadı da bu qəbildəndir. Behbud xan Cavanşir həmin nəslin sayılıb-seçilən övladlarındandır: Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, ictimai-siyasi xadim, AXC dövrünün daxili işlər naziri, parlamentin üzvü...**

Behbud xan keşməkeşli bir ömür yaşamış, gücünü, potensialını, bilik və istedadını xalqının rifahı naminə tam sərf edə bilməmişdir. Bunun səbəbi təkcə ömrünün qısa olmasında deyildi, həm də yaşadığı dövrün çətinliklərində idi.

...1877-ci ildə Tərtər qəzasının Azad Qaraqoyunlu kəndində doğulmuşdu. O, Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın nəticəsi, Azad xanın oğlu idi.

1902-ci ildə Behbud xan Cavanşir Almaniyaya gedir və Frayberq Dağ-Mədən Akademiyasına qəbul olunur. Burada mükəmməl biliklərə yiyələnərək akademiyanı fərqlənmə diplomu ilə bitirib mühəndis ixtisasına yiyələnir. Qeyd edək ki, B.Cavanşir həmin akademiyanı bitirən ilk azərbaycanlı məzun idi. Sonra Londona yola düşür. 1907-ci ildə Vətənə qayıdıb Şubayevin neft mədənlərində işləməyə başlayır.

Behbud xan Bakının neft müəssisələrində baş mühəndis işləməklə yanaşı, xalqın maariflənməsi yolunda da ciddi işlər aparır. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin rəhbəri seçilir.

Çox keçmir ki, onun fəaliyyəti çar xəfiyyələri tərəfindən izlənməyə başlanır. Əslində Behbud xan xəfiyyələrin diqqətini çoxdan cəlb etmişdi. Hələ 1907-ci il avqustun 28-də Cavanşir uyezdi rəisinin Daxili İşlər Nazirliyinə yazdığı raportda deyilirdi ki, "xeyriyyə cəmiyyəti pərdəsi" altında gizli fəaliyyət göstərən "Difai" antidövlət komitəsinin rəhbərləri Əhməd bəy Ağayev, Qarabəy Qarabəyov, Məmməd Həsən Hacınski, İsabəy Aşurbəyov, Behbud bəy Cavanşirski və Niftalı bəy Behbudovdur. Bu fakt da göstərirdi ki, çarizm xəfiyyəsi həmin ziyalıların Behbud xanın Azad Qaraqoyunlu kəndindəki evinə yığılmasından xəbərdar idi.



B.Cavanşir fevral-burjua inqilabından sonra yaranmış Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin tərkibinə seçilir. 1918-ci il iyunun 17-də o, Gəncədə Fətəli xan Xoyskinin yaratdığı hökumət kabinetində daxili işlər naziri vəzifəsini tutur. 1918-ci il oktyabrın 6-da hökumətin tərkibində kabinetdaxili dəyişikliklərdən sonra o, həm də sənaye və ticarət nazirini əvəz edir. Parlamentdə fəaliyyət göstərən fraksiyalardan biri Behbud xan Cavanşirin də daxil olduğu bitərəflər fraksiyası idi. 1919-cu ilin oktyabrından fraksiyada parçalanma baş verir. Bəhram bəy Axundov, Behbud xan Cavanşir və Əbdüləli bəy Əmircanov müstəqil olaraq bitərəflər qrupu yaradırlar. Həmin vaxt Fətəli xan Xoyski hökuməti ilə birgə Behbud xan da tutduğu vəzifədən istefa verir. Ancaq o, parlamentdəki fəaliyyətini davam etdirir.

1919-cu il iyulun 18-dən "Dəyanət" kommersiya şirkəti açır və xarici ticarətlə məşğul olmağa başlayır.

1920-ci ilin sonlarında Behbud xan Cavanşir Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə neft-mədən avadanlığı almaq üçün bir müddət Almaniyada yaşamalı olur.

1921-ci ilin yayında Behbud xan Cavanşir həyat yoldaşı Tamara, qardaşları Surxay və Cümşüdlə İstanbula, Əhməd bəy Ağaoğlugilə qonaq gedir. Yazıçı-alim Vilayət Quliyev 1998-ci ildə nəşr olunmuş "Ağaoğulları" kitabında bu məqama da toxunur. Orada Əhməd bəyin qızı Sürəyya xanımın xatirələrindən sitat gətirir: "Atam Maltadan qayıtdıqdan sonra erməni dostlarından bir professor bizə gələrək atamın ermənilərin qara siyahısında olduğunu, atamı sevən dost kimi onu xəbərdar etməyi özünə vəzifə bildiyini və buna görə də hərəkət etmək lazım gəldiyini söylədi... Azərbaycanın daxili işlər naziri Behbud xan Cavanşirin də ermənilərin qara siyahısında olması xəbərini almışdıq. O arada Cavanşir xanımı və iki qardaşı ilə Parisə getmək üçün İstanbula gəlmişdi. Özü vəziyyətə tez uyğunlaşan adam idi və bizim Şahzadə bağındakı evimizdə beş gün gizli yaşadı".

1921-ci il iyulun 17-də gecə, saat 23-də Behbud xan Cavanşir arvadı və qardaşları ilə "Təpədaşı" Ailə Kazinosunun italyan səfirliyinə baxan qapısından çıxaraq "Pere Palas" hotelinə gedərkən "Daşnaksütyun" partiyasının üzvü, Ermənistan ordusunun keçmiş əsgəri Misak Torlokyan tərəfindən üç güllə ilə qətlə yetirilir. Qatil həbs olunur.

Behbud xan xəstəxanaya çatdırılır. O, həmin vaxtadək də rus inqilabı və hərc-mərclik dövründə dəfələrlə sui-qəsdlərə məruz qalmışdı. Lakin özünü soyuqqanlıqla qoruya bilmişdi. Bəlkə də payına düşən ömür hələ bitməyibmiş... Bu dəfə isə vəziyyət başqa cür idi. O, həyatının sona çatdığını dərk etmişdi.

O zaman İstanbul ingilis işğalı altında idi. Odur ki, cinayət hadisəsindən 20 gün sonra cani ingilis hərbi tribunalında mühakimə edilir. Lakin erməni hiyləgərliyi burada da özünü göstərir. İşi elə qururlar ki, cinayətkar cəzasından qurtarır.

44 illik ömründə Behbud xan çox çətinliklərdən çıxmış, çox sınaqlardan keçmiş və ölümlərdən qurtulsa da, sonda namərd erməni gülləsinə tuş gəlmişdi. Ölüm ayağında ikən son sözləri belə olub: "Mənim şəxsi düşmənim yoxdur. Məni ancaq ermənilər vura bilərlər".

*İradə ƏLİYEVA, "Azərbaycan"*

# Molla Pənah Vaqif yaradıcılığı ABŞ ədəbiyyat portalında

**Amerika Birləşmiş Ştatlarının "Poetry.com" ədəbiyyat portalı Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin ingilis dilinə tərcümə edilmiş "Bənəfşə" şeirinin yayımına başlayıb.**

Tərcümə Mərkəzindən bildirilib ki, şairin yaradıcılığı haqqında məlumatla təqdim olunan şeirin ingilis dilinə tərcümə müəllifi tanınmış ingilis tərcüməçisi və filoloqu Tom Bottinqdir.

Qeyd edək ki, geniş oxucu auditoriyası tərəfindən izlənən portal mütəmadi olaraq səhifələrində



Uilyam Şekspir, Edqar Allan Po, Fridrix Şiller, Emili Dikinson, Ceyn Ostin, Pablo Neruda kimi dünyaşöhrətli şair və yazıçıların yaradıcılığına yer ayırır.

# Milli Kitabxanada virtual sərgilər açılıb




Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar Azərbaycan Milli Kitabxanasının hazırladığı "Şuşa əl işləri" adlı virtual sərgi onlayn rejimdə istifadəçilərə təqdim olunub.

Bu barədə kitabxanadan məlumat verilib. Bildirilib ki, virtual sərgidə Şuşa şəhərində XIX əsr tikmə nümunələri, onların təsnifatı, əyani-vizual görüntüləri və qısa tarixi öz əksini tapıb.

* * *

Azərbaycan Milli Kitabxanasının hazırladığı "Şuşa zərgərlik məmulatları" adlı virtual sərgi istifadəçilərə təqdim olunub.

Kitabxanadan bildirilib ki, sərgidə Şuşa sənətkarlarının hazırladığı zərgərlik nümunələri, onların təsnifatı haqqında məlumatlar, əyani-vizual görüntüləri və qısa tarixi əksini tapıb.



ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Birinci Qarabağ müharibəsinin şəhidləri torpağa tapşırılıb





Birinci Qarabağ müharibəsində itkin düşən və 31 ildən sonra şəxsiyyəti müəyyənləşdirilən Daşkəsən rayonunun Əhmədli kənd sakini şəhid Akif İlyas oğlu Abbasovun nəşinin qalıqları Gəncə şəhər Şəhidlər xiyabanında dəfn edilib.

AZƏRTAC xəbər verir ki, şəhidin cənazə namazı ailəsinin yaşadığı evdə qılınıb, dualar oxunub. Sonra şəhidin nəşi Gəncə Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Dəfn mərasimində Daşkəsən Rayon İcra Hakimiyyəti və Gəncə Şəhər İcra Hakimiyyətinin rəhbərliyi, Türkiyənin Gəncədəki Baş konsulu Rəcəb Öztop, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə və təşkilatların kollektivləri, ictimaiyyət nümayəndələri, şəhidin yaxınları, şəhid ailələri, müharibə veteranları və rayon sakinləri iştirak ediblər.

Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub və yaylım atəşi açılıb.

Şəhidin tabutuna bürünmüş Azərbaycan bayrağı şəhidin qardaşı Nizaməddin Abbasova təqdim edilib.

Qeyd edək ki, şəhid Akif İlyas oğlu Abbasov 1 iyul 1970-ci ildə Daşkəsən rayonunun Əhmədli kəndində anadan olub. O, könüllü olaraq Qarabağda gedən döyüşlərə qatılıb. 28 dekabr 1993-cü ildə Ağdərə rayonunun Salahlı kəndi ərazisində erməni silahlı dəstələri ilə gedən döyüşlərdə hərbi xidməti borcunu yerinə yetirərkən müqəddəs şəhidlik zirvəsinə ucalıb.

* * *



Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyəti müəyyənləşdirilən şəhidlərdən biri olan Qurbanov Aydın Əsədulla oğlu iyulun 18-də paytaxtın Sabunçu rayonunun Maştağa qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Vətənin azadlığı uğrunda mübarizədə canından keçən Aydın Qurbanovun xatirəsi xalqımızın qəlbində yaşayacaq.

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları, Müdafiə Nazirliyinin əməkdaşları, qazilər, rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dəfn mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, yaylım atəşi açılıb. Tədbirdə "Şəhidlər ölməz, Vətən bölünməz" şüarları səsləndirilib, şəhidin ruhuna dualar oxunub.

Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Zahid Baxış oğlu Nağıyevin nəşinin qalıqları Ağdam rayonunda dəfn olunub. AZƏRTAC xəbər verir ki, şəhid Zahid Nağıyevin nəşi ailəsinin yaşadığı Evoğlu kəndinə gətirilib. Şəhidlə vida mərasimi Qaradağlı kənd məzarlığında keçirilib. Mərasimdə şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları, qazilər, şəhid ailələri, döyüş yoldaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Cənazə namazı qılınaraq şəhidlərimizin ruhuna dualar oxunub.

Yaylım atəşindən sonra şəhidin nəşi torpağa tapşırılıb. Tabuta bükülmüş Azərbaycanın üçrəngli bayrağı şəhidin qardaşına təqdim edilib. Qeyd edək ki, Zahid Baxış oğlu Nağıyev Birinci Qarabağ müharibəsində cəbhənin Füzuli və Ağdam istiqamətlərindəki döyüşlərdə iştirak edib. 1994-cü il aprelin 18-də Ağdam rayonunun Cəvahirli kəndi uğrunda gedən döyüşdə itkin düşmüş hesab olunurdu. Aparılan araşdırmalardan sonra döyüşçünün Ağdam rayonunun Xındırıstan kənd məzarlığında naməlum şəhid kimi basdırıldığı müəyyənləşib.

* * *



Yaşar Ələkbər oğlu Kərimov Birinci Qarabağ müharibəsində könüllü olaraq Vətənin müdafiəsi üçün döyüşlərə qoşulmuşdu. Ağdam rayonu uğrunda gedən döyüşlər zamanı itkin düşüb. 31 ildən sonra şəxsiyyəti dəqiqləşdirilən Yaşar Kərimovun nəşinin qalıqları isə doğma yurdu Neftçalada torpağa tapşırılıb. AZƏRTAC xəbər verir ki, şəhid Yaşar Kərimovun nəşi Neftçala sakinləri tərəfindən izdihamla qarşılanıb və doğulub boya-başa çatdığı Qaramanlı kəndində ailəsinin yaşadığı evə gətirilib. Şəhidlə vida mərasimi təşkil olunub, cənazə namazı qılınıb, şəhidlərimizin ruhuna dualar oxunub. Mərasimdə şəhidin ailə üzvləri ilə bərabər rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Daha sonra nəşin qalıqları dəfn üçün Qaramanlı kənd məzarlığına gətirilərək torpağa tapşırılıb.

Qeyd edək ki, Yaşar Ələkbər oğlu Kərimov 1967-ci ildə Neftçala rayonu Qaramanlı kəndində dünyaya göz açıb. Birinci Qarabağ müharibəsi zamanı könüllü olaraq döyüşlərə qoşulub. 1993-cü il iyulun 23-də Ağdam rayonu Şelli kəndi ərazisində gedən döyüşlər zamanı itkin düşüb. Yaşar Kərimov Bərdə Şəhidlər xiyabanında naməlum şəhid kimi dəfn edilən şəhidlərimizdən biri olub.

# "Azərenerji" ölkə enerjisistemi üçün böyük layihələr həyata keçirir

**Qarabağ və Şərqi Zəngəzur regionunu yeni mənbə olaraq qidalandırıb dairəvi elektrik təchizatını gücləndirmək, işğaldan azad edilən ərazilərdə istehsal olunan "yaşıl enerji"ni enerjisistemə ötürmək, o cümlədən ixrac etmək və digər mühüm əhəmiyyətli perspektiv məqsədlər üçün həyata keçirilən işlər çərçivəsində 330 kilovoltluq sistem əhəmiyyətli "İmişli" yarımstansiyası "Azərenerji" tərəfindən genişləndirilərək tam yenidən qurulur. Bu yarımstansiya da digər yarımstansiyalar kimi dördüncü sənaye inqilabına uyğun olaraq perspektiv nəzərə alınmaqla müasir avadanlıqlarla təchiz edilir.**







Buna qədər isə "İmişli" yarımstansiyasından "Cəbrayıl" Enerji Qovşağına 130 km məsafədə 330 kilovoltluq ötürmə xətti çəkilib və işlər yekunlaşıb, xətt gərginlik altındadır.

Qeyd edək ki, ölkələrarası beynəlxalq enerji dəhlizi layihəsinin tərkib hissəsi olaraq 330 kilovoltluq "İmişli" yarımstansiyasından başqa 330 kilovoltluq "Ağcabədi" yarımstansiyası da "Azərenerji" tərəfindən genişləndirilərək yenidən qurulub və bu yarımstansiyadan Cəbrayıla 132 km məsafədə 330 kV-luq ötürmə xətti çəkilib. Eyni zamanda beynəlxalq əhəmiyyətli "Cəbrayıl" Enerji Qovşağı tikilərək istismara verilib. "İmişli" yarımstansiyasında isə işlərin yaxın aylarda başa çatdırılması nəzərdə tutulub.


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# "Qarabağın incisi - Şuşa" kitab-albomu və "Azadlıq" romanı Bosniya və Herseqovinada təqdim olunub

**Ölkəmizin Bosniya və Herseqovinadakı səfirliyinin təşəbbüsü ilə Azərbaycan Dövlət Tərcümə Mərkəzində hazırlanaraq boşnak dilində nəşr edilmiş "Qarabağın incisi - Şuşa" kitab-albomu, habelə xalq yazıçısı Afaq Məsudun ingilis dilinə tərcümə olunmuş "Azadlıq" romanı Bosniya və Herseqovinada geniş auditoriyanın diqqətinə təqdim edilib.**




AZƏRTAC xəbər verir ki, Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunmasına həsr edilən "Qarabağın incisi - Şuşa" kitab-albomu və Afaq Məsudun 1990-cı illərin əvvəllərində Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizəsindən bəhs edən "Azadlıq" romanı səfirlik tərəfindən Bosniya və Herseqovinanın dövlət və hökumət başçılarının, parlament üzvlərinin, tanınmış ədəbiyyat və mədəniyyət xadimlərinin, universitet professorlarının, qəzet və jurnal rəhbərlərinin, eləcə də Sarayevo şəhərində yerləşən diplomatik missiya rəhbərlərinin yer aldığı 100-dək yüksəksəviyyəli və nüfuzlu şəxsə göndərilib.

Bununla bağlı səfirliyə təşəkkür və xoş rəyləri ehtiva edən çoxlu məktub daxil olub. Təşəkkürlərini bildirən şəxslər bu kitabların ölkəmizin tarixinin öyrənilməsi üçün böyük fürsət yaratdığını və onlardan daha çox insanların yararlanması üçün kitabxana kolleksiyalarına əlavə edəcəklərini vurğulayıblar.

Kitablarla məmnuniyyətlə tanış olduğunu bildirən Bosniya və Herseqovinanın İslam İcmasının rəhbəri Reisul-üləma Hüseyn Kavazoviç yazıb: "Biz soyqırımına məruz qalmış bir xalq olaraq qardaş Azərbaycanda baş vermiş hadisələr və qurbanların xatirələrinin daim diqqət mərkəzində saxlanılması ilə bağlı görülən bütün səylərə dair xüsusi anlayışa sahibik. Bosniya və Herseqovina xalqı, eləcə də İslam İcması uzunmüddətli əməkdaşlıq və həmrəyliyə görə Azərbaycana minnətdarlıq ifadə edir".

Bosniya və Herseqovina Parlamentinin Nümayəndələr Palatasının üzvü Nihad Ömeroviçin göndərdiyi təşəkkür məktubunda isə bu kitabların ölkəsində nəşrində səfirliyin göstərdiyi səylər yüksək qiymətləndirilib, onların Azərbaycanın zəngin tarixi və mədəniyyəti, xalqımızın azadlıq və istiqlal mübarizəsi haqqında dəyərli məlumatlar əldə edilməsinə töhfə verəcəyi qeyd olunub.

Səfirliyimiz tərəfindən ölkəmizi, tarix və mədəniyyətimizi daha yaxşı tanıtmaq məqsədilə gələcəkdə də bu kimi layihələrin davam etdirilməsi nəzərdə tutulur.

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən "Azərterminalkompleks" Birliyinin əməkdaşı Cavid Natiq oğlu Verdiyevin adına verilmiş 3276 nömrəli döş nişanı itdiyi üçün etibarsız sayılır.**

# "Bakı Toxucu" QSC-nin 2023-cü il üzrə maliyyə hesabatı

**"Bakı Toxucu" Qapalı Səhmdar Cəmiyyətin Rəhbərliyinə**

**Maliyyə hesabatları haqqında**

**Rəy.** Mən, "Bakı Toxucu" Qapali Səhmdar Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişiklikləri haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçotu siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeyidlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

**Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları "Bakı Toxucu" QSC-in 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətdi aspektlərdə ədalətli əks etdirir.**

**Rəy üçün əsaslar.** Mən, auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikası maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri.** Əsas audit məsələləri mən peşəkar mühakiməmə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və mən bu məsələlərə dair ayrılıqda rəy vermirəm.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti.** Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda rəhbərlik Cəmiyyətin ləğv və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsiplərinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İqtisadi suyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarını verilmə prosesinə nəzarət görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti** Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zamanət vermir ki, əhəmiyyətli təhrif movcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmşə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir. Azərbaycan Respublikası Auditorlar Palatasının 22 dekabr 2021-ci il tarixli SA /065 saylı İcazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov Müstəqil auditor rəyini 15 iyul 2024-cü il tarixində [illegible]

**Sərbəst auditorun ünvanı: Bakı şəhəri, [illegible] küçəsi ev 35**
**Azərbaycan Respublikası Auditorlar Palatası**
**Sərbəst auditor**

**Vəli Oruc oğlu Bayramov**

"Bakı Toxucu" QSC-nin 2023-cü il üzrə maliyyə hesabatlarını Azərbaycan Respublikası Auditorlar Palatasının 22.12.2021-ci il tarixli SA/065 saylı icazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov aparmışdır. Audit nəticəsində 15.07.2024-cü ildə müsbət audit rəyi ilə rəsmiləşdirilmişdir.

***F.ƏHMƏDOV,***
***"Bakı Toxucu" QSC-nin sədri***

# Şirvanda qanvermə aksiyası təşkil edilib

**Məhərrəm ayında ehtiyacı olanlara kütləvi olaraq könüllü qanvermə ənənəsi davam etdirilir.**



Azərbaycanda ötən il ölkə üzrə 16 ünvanda keçirilən qanvermə aksiyasının əhatə dairəsi bu il genişləndirilərək 35-ə çatdırılıb.

Bu nəcib təşəbbüsün davamı olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü və Şirvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Şirvan Şəhər Məscidində qanvermə aksiyası keçirilib. Qanvermə aksiyasına səhər saatlarından start verilib və gün ərzində davam edib.

Yığılan qan hemofiliyalı və talassemiyalı xəstələrin, həmçinin qana ehtiyacı olan insanların həyatının xilası üçün istifadə olunacaq.

*"Azərbaycan"*


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3417**
**Sifariş 1569**

**Qiyməti 60 qəpik**